RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 33 (9200) 14 FEVRAL 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyev müstəqillik dövrünün ən böyük istilik-elektrik stansiyasının təməlini qoydu

**Fevralın 13-də Bakıda "Gülüstan" sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük istilik-elektrik stansiyasının təməlqoyma mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edib.**

→ 2

# Azərbaycan Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi - Azərbaycan Ali Məhkəməsinin 100 illik yubileyinə həsr olunan "Ali məhkəmələrin ədalət mühakiməsində rolu: müsbət təcrübələr və müasir çağırışlar" mövzusunda beynəlxalq konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayır, konfrans çərçivəsində məhsuldar müzakirələr arzulayıram.

Müasir Azərbaycan Respublikasının hüquqi varisi olduğu Azərbaycan Xalq Cümhuriyyətində dövlət quruculuğu sahəsində əsaslı tədbirlər görülmüş, o cümlədən yeni məhkəmə-hüquq sisteminin təsis edilməsi ilə bağlı tarixi qərarlar qəbul edilmiş, birinci instansiya və apellyasiya instansiyası məhkəmə orqanları fəaliyyətə başlamışdır. 1920-ci ilin aprelində Xalq Cümhuriyyətinin süquta uğraması səbəbindən Azərbaycanda kassasiya instansiyası məhkəməsinin yaradılması yalnız ölkə tarixinin növbəti mərhələsində mümkün olmuşdur.

1923-cü ildə təsis edilmiş ali məhkəmə orqanı sovet dövrünün bütün çətin sınaqlarından keçmiş, məhkəmə sisteminin təkmilləşdirilməsində, hüququn və onun tətbiqi təcrübəsinin zənginləşdirilməsində, peşəkar milli hüquqşünas kadrların yetişdirilməsində iştirak etmişdir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hakimiyyət bölgüsü prinsipi müəyyənləşdirilmiş, Ali Məhkəmə başda olmaqla müstəqil, üçpilləli məhkəmə sistemi təsbit edilmişdir. Məhz Ulu Öndərin siyasi iradəsi nəticəsində, mütərəqqi hüquqi yanaşmalar və modellər nəzərə alınmaqla, müasir Azərbaycan məhkəmə sisteminin yaradılması məqsədilə fundamental islahatlar aparılmışdır.

Məhkəmə-hüquq sisteminin davamlı inkişafı daim dövlət siyasətimizin prioritetlərindən biri olmuşdur. Məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsi, hüququn aliliyinin təmin edilməsi, məhkəməyə müraciət imkanlarının genişləndirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılması, yüksək hüquqi biliklərə malik hakim korpusunun yaradılması, məhkəmə fəaliyyətinin yeni informasiya texnologiyalarının tətbiqi yolu ilə təkmilləşdirilməsi bu inkişaf prosesinin mühüm istiqamətləridir. Qeyd edilən istiqamətlərdə əhəmiyyətli nailiyyətlərin əldə edilməsində Ali Məhkəmənin xüsusi rolu vardır. Ali Məhkəmə cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsi institutlarının formalaşdırılması sahəsində məqsədyönlü fəaliyyətini bundan sonra da davam etdirməli, insan hüquqlarının müdafiəsinə yönəlmiş yeni hüquqi mexanizmlərin müəyyənləşdirilməsinə, məhkəmələrdə hüquqi məsələlərin həllində vahid təcrübənin təmin edilməsinə töhfə verməlidir.

Müasir cəmiyyətlərin qarşılaşdığı yeni çağırışlar ədalət mühakiməsi institutlarının da fəaliyyətinə təsir göstərir. Pandemiyalar daxil olmaqla müxtəlif böhran vəziyyətlərində məhkəmələrin insanlar üçün əlçatanlığının, bununla belə, məhkəmə prosesinin çevikliyinin və ədalətliliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətində qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının və süni intellekt elementlərinin tətbiqi, eyni zamanda bu texnoloji yeniliklərdən insan hüquqlarına və etik prinsiplərə riayət olunmaqla istifadə edilməsi, ictimai münasibətlərin sürətlə dəyişməsi ilə əlaqədar hüququn təkamülü və onun sabitliyinin qorunması məqsədləri arasında effektiv balansın təmin edilməsi kimi məsələlər belə çağırışlar sırasındadır.

Ümidvaram ki, bugünkü beynəlxalq konfrans çərçivəsində müasir çağırışların müzakirəsi ədalət mühakiməsinin məqsədlərinə nail olunmasına, bununla da cəmiyyətimizin tərəqqisinə dəyərli töhfə verəcəkdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimlərini və işçilərini 100 illik yubiley münasibətilə təbrik edir, peşə fəaliyyətində uğurlar arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2023-cü il*

# Azərbaycan ən vacib saydığı layihələri İtaliya şirkətlərinə həvalə edib

## Bu, əlaqələrin dərinliyinin və səmimiliyinin göstəricisidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də 1280 MVt gücündə ən böyük istilik-elektrik stansiyasının təməlqoyma mərasimində iştirak edən İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

-Xoş gəlmisiniz, cənab nazir, Sizi Azərbaycanda görməyimə çox şadam. Bu, doğrudan da, çox önəmli tədbirdir və İtaliya-Azərbaycan dostluğunu böyük dərəcədə gücləndirəcək bir layihədir. Qeyd olunduğu kimi, İtaliya-Azərbaycan əlaqələri strateji məna daşıyır və biz çalışırıq ki, bu strateji tərəfdaşlıq çərçivələrini daha da genişləndirək. İlk növbədə siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Siz də öz çıxışınızda qeyd etdiniz ki, Prezident Mattarellanın Azərbaycana səfəri, mənim İtaliyaya səfərlərim bu əlaqələri daha da gücləndirir. Əlbəttə ki, yanvarın 11-dən bu günə qədər İtaliya hökumətinin üç nazirinin Azərbaycana gəlməsi çox önəmli və deyə bilərəm ki, fövqəladə bir hadisədir. Bu səfərlər zamanı biz həm hərbi, hərbi-texniki, energetika və bütövlükdə investisiya, ticarət sahələrində əməkdaşlığı müzakirə etmişik və edəcəyik.

Güclü siyasi əlaqələrimiz çox böyük təməldir. Neft-qaz və hazırda elektroenergetika layihələri bu təməli böyük dərəcədə gücləndirdi. Eyni zamanda biz istəyirik ki, ticarət əlaqələri daha da şaxəli olsun. Bilirsiniz ki, İtaliya-Azərbaycan Universitetinin inşa edilməsi prosesi sürətlə gedir, 5 İtaliya universiteti bizimlə artıq tərəfdaşdır. Eyni zamanda azad olunmuş torpaqlarda ən çox iş görən şirkətlər Türkiyəni və İtaliyanı təmsil edirlər.

Onu da bildirməliyəm, İtaliya-Azərbaycan əlaqələri o qədər dərin və səmimidir ki, biz özümüz üçün ən vacib saydığımız layihələri məhz İtaliya şirkətlərinə həvalə etmişik. Məsələn, Bakı şəhərində, azad edilmiş bir çox şəhərlərdə Qələbə və İşğal muzeyləri İtaliya şirkətləri tərəfindən yaradılır. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində dağılmış 3 məscid və yeni inşa edilən 1 məscid İtaliya şirkətləri tərəfindən bərpa olunur və inşa edilir. Yəni bütün digər sahələrlə yanaşı, qeyd etdiyim bu layihələr bizim üçün xüsusi əhəmiyyət daşıyır. Çünki bu, bizim həm tarixi keçmişimizdir, eyni zamanda Qələbəni əks etdirən yeni rəmzlər olacaq.

İkinci Qarabağ müharibəsi başa çatandan bir ay sonra "Azərenerji" ilə "Ansaldo" arasında çox önəmli müqavilə imzalanmışdır. İşğaldan azad edilmiş torpaqlar 10 min kvadratkilometrə bərabərdir. Müqayisə üçün deyim ki, Livan boyda bir ərazidir. Burada hər şey dağıdılıb, ona görə biz hər şeyi yenidən qururuq və istəyirik ki, bu işlərdə daha çox İtaliya şirkəti iştirak etsin - həm inşaat, həm xidmət, həm sərmayə sahələrində, həm də kontraktor kimi. Artıq İtaliyanın "IVECO" şirkəti orada öz müəssisəsini yaratmağa start verib. Orada yük maşınlarının istehsalı nəzərdə tutulur. Ona görə gündəlik çox genişdir və əminəm ki, səfər zamanı bütün bu məsələlər geniş müzakirə ediləcək.

Nazir **Adolfo Urso** dedi:

- Təşəkkür edirəm cənab Prezident, qəbula görə minnətdarlığımı bildirirəm.

Sizin ölkənizdə dəfələrlə olmuşam. Mən hələ xarici ticarət naziri olduğum zaman Azərbaycana səfər etmişdim. Bu gün isə "Ansaldo" ilə razılaşmanın qeyd olunması mərasiminə qatılmışam.

Siz ərazilərinizi azad etdikdən bir neçə gün sonra İtaliyanın parlament nümayəndə heyətinin tərkibində ölkənizə səfər etdim. O vaxt həmin yerlərə baş çəkdik. Ağdam şəhərinə getdiyimi, məscidin minarəsindən çəkdiklərimi xatırlayıram. İtaliyanın informasiya kanallarında onları nümayiş etdirdim. Bu səfər məndə böyük hisslər doğurdu. Bu dağıntıları heç kəs təsəvvür edə bilmirdi.

❖ ❖ ❖

Görüşdə hökumətlərarası komissiyanın fəaliyyətinin vacibliyi qeyd edildi, bu komissiyanın iclasının tezliklə keçirilməsinin qarşıya qoyulmuş vəzifələrin icrası baxımından önəmi vurğulandı.

Söhbət zamanı Azərbaycanla İtaliya arasında enerji sahəsi ilə yanaşı, bərpaolunan enerji, kənd təsərrüfatı texnikası, əczaçılıq sənayesi, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq, həmçinin işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri barədə fikir mübadiləsi aparıldı.

İtaliyanın enerji təhlükəsizliyinin təmin edilməsində hazırda mühüm rol oynayan TAP layihəsinin əhəmiyyəti və gələcəkdə onun ötürmə qabiliyyətinin artırılması məsələləri müzakirə olundu.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrin inkişafına İtaliyanın həmişə verdiyi dəstək yüksək qiymətləndirildi və Avropa İttifaqı ölkələri arasında İtaliyanın Azərbaycanın mühüm tərəfdaşı olduğu vurğulandı.

Müzakirə edilən məsələlərin icrası üçün aidiyyəti nazirliklər səviyyəsində qarşılıqlı səfərlərin həyata keçirilməsi üzrə tapşırıqlar verildi.

# SINAQ



## Dövlətləri, prezidentləri, sıravi vətəndaşları daha da doğmalaşdıran fəlakət

Bu faciə həm də hamıya ən böyük sınaq oldu.

Dostluğun sınağı...

Qardaşlığın sınağı...

İnsanlığın sınağı...

Birliyin sınağı...

Mərdliyin sınağı...

Dar gündə, dar məqamda dövlətin, millətin, xalqın sınağına çevrildi!

**Azərbaycanda rəsmən nə fövqəladə vəziyyət elan olunub, nə də ümumxalq matəmi!**

**Amma xalq ürəyinin hökmü ilə özünü matəm günlərindəki kimi hiss edir!**

**Hər bir Azərbaycan vətəndaşı tarixinin ən ağır məqamlarından birini yaşayan qardaş Türkiyəyə dayaq durmağa, nə iləsə yardım etməyə çalışır, buna daim cəhd edir, can atır!**

*Kimin nəyə gücü çatırsa...*

*Kimin imkanı necədirsə...*

*Kimin evində gümanı nəyə gəlirsə...*

Hətta ziyan çəkənlərə qız övladları üçün yığdıqları cehizdən də yardım göndərənlər var!

Evdə qonaq-qara üçün saxlanılan işlənməmiş yorğan-döşəyini də paya çevirənlər çoxdur!

**Türk qardaşları darda olan azərbaycanlılar evdə rahat oturub isti yorğan-döşəkdə asudə yatmağa utanırlar...**

**Bunu hamı bir-birinə etiraf edir!**

→ 5

# İlham Əliyev müstəqillik dövrünün ən böyük istilik-elektrik stansiyasının təməlini qoydu

## Prezident İlham Əliyevin çıxışı




- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bu gün biz Mingəçevir şəhərində yeni 1280 meqavat gücündə elektrik stansiyasının təməlinin qoyulması mərasiminə toplaşmışıq. Əminəm ki, biz yaxın zamanlarda - 2025-ci ildə bu stansiyanın açılışını qeyd edəcəyik.

Bu, çox əlamətdar hadisədir, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək, eyni zamanda Mingəçevirin Azərbaycanın elektroenergetika mərkəzi kimi önəmini daha da artıracaq. Onsuz da Mingəçevir hazırda elektroenergetika sahəsində bizim əsas şəhərimizdir. Mingəçevirdə fəaliyyət göstərən elektrik stansiyası bu gün ölkəmizin elektrik enerjisinə ehtiyacının böyük hissəsini ödəyir.

Mingəçeviri nəinki Azərbaycanın, ümumiyyətlə, Qafqazın enerji mərkəzinə çevirən Ulu Öndər Heydər Əliyev olmuşdur. Onun rəhbərliyi və təşəbbüsü ilə ötən əsrin 70-ci illərində, daha doğrusu, 1976-cı ildə Mingəçevirdə böyük elektrik stansiyasının təməli qoyulmuşdur. Böyük stansiyanın birinci blokunun 1981-ci ildə Heydər Əliyevin şəxsən iştirakı ilə açılışı olmuşdur.

Ümumi generasiya gücü 2400 meqavat olan stansiya ölkəmizin nəinki enerji potensialını, ümumiyyətlə, sənaye potensialının böyük hissəsini ödəyərək imkan verdi ki, hətta müstəqilliyimizin ən ağır illərində, ilk illərdə Azərbaycanda elektrik enerjisi ilə təchizat təmin edilsin. Halbuki o vaxt Bakıda və Azərbaycanın müxtəlif yerlərində yaşamış insanlar yaxşı xatırlayırlar ki, o dövrdə hətta elektrik enerjisi kəsilirdi, kəsir var idi, özümüzü təmin edə bilmirdik. Amma buna baxmayaraq, əsas yükü o zaman məhz Mingəçevir Elektrik Stansiyası öz üzərinə götürmüşdü.

Təbii ki, illər keçdikcə istənilən infrastruktur köhnəlir, o cümlədən Mingəçevir Elektrik Stansiyasının yenidən qurulması prioritet məsələlərdən biri idi və mənim göstərişimlə 2018-ci ildə stansiyanın tamamilə yenidən qurulması prosesi başlamışdır. Qısa müddət ərzində - artıq iki ildə 8 blok tamamilə yenidən qurulmuş və istifadəyə verilmişdir. Beləliklə, 2020-ci ildə stansiya, necə deyərlər, öz əzəli gücü ilə yenidən işləməyə başlamış və 2400 meqavat generasiya gücünə malik olmuşdur.

Onu da bildirməliyəm ki, bərpa-yenidənqurma işləri nəticəsində təqribən 600 meqavatdan çox itirilmiş güclər bərpa edildi və bu da özlüyündə yeni bir böyük stansiyanın tikintisi deməkdir.

Mingəçevir Elektrik Stansiyasının önəmi İkinci Qarabağ müharibəsi zamanında bir daha bəlli oldu. Çünki o vaxt döyüş meydanında məğlub olan Ermənistan Azərbaycanın mülki obyektlərini də atəşə tuturdu, yüzlərlə yaşayış evi tamamilə dağıdılmışdı, yüzə yaxın dinc insan həlak olmuşdur, o cümlədən Mingəçevir Elektrik Stansiyası da atəşə tutulmuşdu, uzaqmənzilli raketlərlə atəşə tutulmuşdu. Bu raketlərin bir çoxu Azərbaycanın hava hücumuna qarşı müdafiə sistemləri tərəfindən məhv edildi, bəziləri isə hədəfə dəymədi. Yəni döyüş meydanında məğlub olan Ermənistan məhz Azərbaycanın elektrik potensialının əsas mərkəzini sıradan çıxarmaq istəyirdi. Ancaq buna nail ola bilmədi.

İndi isə Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya, əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin. Bu gün Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu eyni zamanda Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaqdır.

Onu da bildirməliyəm ki, yeni tikiləcək bu stansiyanın müasir standartlara cavab verməsi nəticəsində karbon qazının miqdarı çox böyük dərəcədə - 2 milyon ton azalacaq və beləliklə, ətraf mühitə də bunun çox böyük faydası olacaqdır.

Stansiya Azərbaycanın daxili resursları çərçivəsində inşa ediləcək. Onu da bildirməliyəm ki, mənə verilən məlumata görə, stansiyanın ümumi dəyəri təqribən 400 milyon dollara qədər olacaq və elektroenergetika sahəsini yaxından bilən insanlar bilirlər ki, təxminən 1300 meqavat gücündə olan stansiya neçəyə başa gələ bilər. Yəni bu stansiyaya sərf ediləcək vəsait, bir qayda olaraq, bu böyüklükdə stansiyaların tikintisinə sərf olunan vəsaitdən 3-4 dəfə aşağıdır. Bunun da səbəbi, əlbəttə ki, səmərəlilikdir. Eyni zamanda bunun səbəbi odur ki, Mingəçevirdə artıq güclü elektroenergetika infrastrukturu yaradılmışdır və bu stansiyanın məhz Mingəçevirdə inşa edilməsi də ilk növbədə bu məqsədi güdür.

Ona görə biz az vəsaitlə böyük enerji potensialına malik oluruq. Eyni zamanda ödəniləcək vəsaitin 60 faizi "Azərenerji"nin öz vəsaiti hesabına təmin ediləcək. Qalan 40 faiz isə kreditlər vasitəsilə təmin ediləcək. Yenə də nəzərə alsaq ki, burada iş əmsalı çox yüksək olacaq, təbii qaza böyük qənaət olunacaq, bir neçə il ərzində əminəm ki, bu stansiyanın fəaliyyəti nəticəsində həm qoyulan vəsait qayıdacaq eyni zamanda kredit borcu da bağlanacaq.

Yəni bu hərtərəfli uğurlu bir layihədir. Baxmayaraq ki, hazırda dünyada, Avropada, o cümlədən Azərbaycanda bərpaolunan enerjiyə daha böyük üstünlük verilir, biz də bu sahədə böyük uğurlara artıq imza atmışıq. Buna baxmayaraq, ənənəvi resursların, ənənəvi stansiyaların da faydası göz önündədir.

Bildirməliyəm ki, bu stansiyanı biz xarici tərəfdaşlarla birlikdə inşa edəcəyik. Bugünkü mərasimdə İtaliyanın şirkətlər və "Made in Italy" naziri iştirak edir. Mən hörmətli qonağı səmimiyyətlə salamlayıram. Eyni zamanda Çinin bir şirkəti bu stansiyanın tikintisində iştirak edəcək. Yəni biz bu işi xarici əməkdaşlıq çərçivəsində görəcəyik. Əlbəttə ki, "Azərenerji" ilə İtaliyanın "Ansaldo" şirkəti arasındakı əlaqələr burada həlledici rol oynayır. Bildirməliyəm ki, "Azərenerji" ilə "Ansaldo" arasında müqavilələr İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra imzalanmışdır. Azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda bu gün böyük quruculuq-bərpa işləri getdiyi bir dövrdə ilk növbədə o bölgənin enerji potensialı araşdırılır və bu istiqamətdə də "Ansaldo" və "Azərenerji" tərəfdaşlıq çərçivəsində fəaliyyət göstərirlər.

İtaliya şirkətinin bu stansiyanın inşasında iştirakı təsadüfi deyil. İtaliya bizim strateji tərəfdaşımızdır. İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır, yüksəksəviyyəli qarşılıqlı səfərlər təşkil edilmişdir. Bu ilin yanvar ayından başlayaraq İtaliyanın yeni hökumətinin üç naziri artıq Azərbaycana səfər etmişlər - müdafiə naziri, energetika naziri və bu gün şirkətlər və "Made in Italy" naziri. Cəmi bir ay ərzində, - yəni birinci səfər yanvarın 11-də olmuşdur, - yeni hökumətin 3 naziri Azərbaycanda səfərdə olub. Bu, bizim əlaqələrimizin, doğrudan da, nə qədər yüksək səviyyədə olmasından xəbər verir.

Əlbəttə, bütövlükdə energetika sahəsində əməkdaşlıq ənənəvidir. Azərbaycan neftinin böyük hissəsi İtaliya bazarına çatdırılır və iki ildən artıqdır ki, Azərbaycan qazı İtaliya bazarına çatdırılır. TAP layihəsi bizim birgə uğurumuzdur. "Cənub qaz dəhlizi"nin başlanğıcı Azərbaycanın Xəzər dənizindəki sektorudursa, bunun son məntəqəsi İtaliyadır və yol boyunca bir neçə ölkə Azərbaycan qazından faydalanır. O cümlədən Avropanın yeni ehtiyaclarını nəzərə alaraq və keçən il Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış sənədə əsasən, biz Avropa məkanına təbii qazın həcminin artırılmasını təmin edəcəyik. Əlbəttə ki, burada TAP layihəsinin iki dəfəyədək genişləndirilməsi məsələsi gündəlikdədir. Bu məsələ artıq bir müddətdir ki, müzakirə edilir, o cümlədən bu ayın əvvəlində Bakıda keçirilmiş "Cənub qaz dəhlizi"nin Məşvərət Şurasında geniş müzakirə edilmişdir.

Əminəm ki, biz bütün istiqamətlər üzrə hədəflərə çatacağıq və necə ki neft və qaz layihələri, eyni qaydada Azərbaycanın elektrik enerjisi də Avropa məkanına çatdırılacaq. Bu məqsədlə keçən ilin dekabr ayında müvafiq anlaşma imzalanmışdır və Azərbaycanın potensialı, o cümlədən "yaşıl enerji" potensialı Avropa üçün yeni imkanlar açacaqdır.

Yəni İtaliya-Azərbaycan əlaqələri təkcə iki ölkənin maraqlarını təmin etmir, böyük coğrafiyanın maraqlarını təmin edir. Onu da bildirməliyəm ki, bizim əməkdaşlığımız təkcə energetika sahəsi ilə məhdudlaşmır. İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Hazırda Bakıda Azərbaycan-İtaliya Universitetinin yeni binası inşa edilir. Azad edilmiş torpaqlarda bərpa-yenidənqurma işlərində İtaliya şirkətləri çox fəal iştirak edirlər - dini abidələrin bərpası və tikintisi, qələbə muzeylərinin tikintisi və dizaynı. Yəni bu, doğrudan da, çox strateji tərəfdaşlıqdır və əlbəttə ki, bugünkü mərasim bunu bir daha göstərir.

Deməliyəm ki, Azərbaycanda bütövlükdə elektroenergetika sahəsi son illər ərzində çox sürətlə və uğurla inkişaf etmişdir. Son 20 il ərzində Azərbaycanda 34 elektrik stansiyası inşa edilmişdir və bu stansiyaların generasiya gücü təqribən 3400 meqavata bərabərdir. Sadəcə olaraq, müqayisə üçün deyə bilərəm ki, hazırda bizim ümumi generasiya gücümüz 7200 meqavatdır, onun 3400 meqavatı son 20 ildə yaradılmışdır. İndi təsəvvür edin, əgər biz bunu etməsəydik, əgər bu məsələni prioritet seçməsəydik, bu gün bizim iqtisadi və sənaye inkişafı sual altında ola bilərdi. Bu gün biz öz enerji təhlükəsizliyimizi təmin edə bilməzdik. Yəni bütün işlər vaxtında aparıldı, ardıcıllıqla aparıldı. Bugünkü mərasim və 2025-ci ildə fəaliyyətə başlayacaq yeni stansiya bizim enerji potensialımızı daha da gücləndirəcək. Çünki buna həm Azərbaycanda, həm də Avropada ehtiyac var. Biz azad edilmiş torpaqlarda bərpa-yenidənqurma işlərini ilk növbədə elektroenergetika sahəsindən başlamışdıq və artıq 10-dan çox yarımstansiya inşa edilmişdir, 10-dan çox su-elektrik stansiyası inşa edilmişdir. Artıq biz iki il ərzində Şərqi Zəngəzur bölgəsində 50 meqavatdan çox generasiya gücü yaratdıq və bu rəqəm bu ilin sonuna qədər 200 meqavata çatacaq. Yəni biz ancaq azad edilmiş torpaqlarda cəmi 3 il ərzində 200 meqavatlıq enerji gücü yaratmış olacağıq. Bütün stansiyalar ümumi şəbəkəyə qoşulmuşdur. Şərqi Zəngəzurun və Qarabağın böyük hidroenergetika potensialı imkan verəcək ki, biz o bölgələrdə 500 meqavata qədər generasiya gücləri yaradaq. Yəni bu sahə prioritet olaraq qalır.

Amma eyni zamanda bildiyiniz kimi, bərpaolunan enerji növlərinin inkişafı üçün Azərbaycanda çox böyük potensial var. Hazırda iki stansiya inşa edilir - 470 meqavatlıq günəş və külək. Üçüncü stansiyanın inşası yaxın vaxtlarda başlayacaq, o da bizə təqribən 240 meqavat əlavə güc verəcək. Hazırda xarici investorlarla imzalanmış sənədlər əsasında 25 qiqavata qədər günəş və külək-elektrik enerjisi stansiyalarının inşası nəzərdə tutulur - böyük hissəsi Xəzər dənizində, bir neçəsi isə quru sahələrdə. Yəni bu, doğrudan da, çox böyük potensialdır və təkcə Xəzər dənizinin külək enerjisi potensialı 157 qiqavata bərabərdir.

Biz bu gün, doğrudan da, böyük və önəmli işin təməlini qoyuruq. Əminəm ki, stansiya nəzərdə tutulmuş vaxtda inşa ediləcək və həm ölkəmizin enerji potensialını gücləndirəcək, ixrac imkanlarımızı gücləndirəcək və həm də xarici tərəfdaşlarla yeni gələcək layihələrə yol açacaqdır.

Sağ olun.

❖ ❖ ❖

İtaliyanın şirkətlər və "Made in Italy" naziri **Adolfo Urso** çıxış edərək dedi:

- Son illər ərzində İtaliya ilə Azərbaycan arasında güclü əlaqələri möhkəmləndirən çoxsaylı və mühüm görüşlər ənənəsini daha da inkişaf etdirmək məqsədilə bu gün burada olmaqdan son dərəcə məmnunam. Biz artıq neçənci dəfədir ki, Azərbaycana səfər edirik. Biz Azərbaycanın tarixi dostuyuq və cənab Prezidentin artıq qeyd etdiyi kimi, üçüncü nazirdir ki, bu gün Bakıya səfər edir. Müdafiə naziri, energetika naziri və bu gün isə şirkətlər naziri Bakıdadır. Bu, əslində, İtaliya ilə Azərbaycan arasında güclü əlaqələrin olmasını göstərir.

2018-ci ildə İtaliya Prezidenti Sercio Mattarella Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən burada qəbul olunmuşdur. Həmin səfərdən cəmi iki il sonra Azərbaycan Prezidenti 2020-ci ildə Romaya səfəri ilə bizi şərəfləndirdi. Həmin il Azərbaycan mədəniyyətinin İtaliyada mühüm ili oldu və sonra dövlət başçısı yenidən ölkəmizə səfər etdi. Mən isə nazir kimi, - həmçinin Azərbaycana əvvəllər də səfər etmişəm, o vaxt mən xarici ticarət naziri idim, - 2020-ci ildə etdiyim səfərə gəldikdə, bu mənim məhz ərazilərin işğaldan azad edilməsindən sonra, müharibədən sonra etdiyim ilk səfər idi.

Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə çərçivəsində Bakı ilə Roma arasında xüsusi münasibətlərə böyük inamla yanaşırıq, iki ölkə arasında çoxölçülü strateji tərəfdaşlığa əsaslanan mövcud münasibətlərin, siyasi dialoqun hərtərəfli genişləndirilməsi üçün davamlı və əmin şəkildə çalışırıq.

Ölkələrimiz arasında yaradılmış siyasi anlaşma və dostluğu, eləcə də geniş əhatəsi olan iqtisadi əməkdaşlığın davamlı gücləndirilməsini yüksək dəyərləndiririk. Həmçinin biz energetika sahəsində çalışırıq. İtaliya ilə Azərbaycan arasında tərəfdaşlıq münasibətlərini bundan sonra da gücləndirəcəyik. Biz həmçinin iqtisadiyyat sahəsində çalışırıq. İtaliya Azərbaycanın birinci ticari tərəfdaşıdır və Azərbaycan İtaliyanın əsas enerji təchizatçılarından biridir. Cənab Prezident burada bizim həyata keçirəcəyimiz layihənin vacibliyini qeyd etdi. Söhbət burada həmçinin TAP boru kəmərinin buraxılış qabiliyyətinin iki dəfə artırılmasından gedir. Beləliklə, İtaliyaya daha çox təbii qaz daxil olacaqdır.

İki ölkə arasında dostluq əlaqələri və geniş əməkdaşlıq təhsildən tutmuş mədəniyyətədək müxtəlif sektorlarda əməkdaşlığın genişləndirilməsini təmin etmişdir. Bu gün sizin nəhəng "Azərenerji" şirkəti ilə "Ansaldo" arasında qurulan bu tərəfdaşlıq tarixi bir hadisədir. Bu həmçinin dövlətin səlahiyyətində olan əlavə imkanlar hesabına təmin ediləcəkdir. "Ansaldo" şirkəti İtaliya sənayesinin mühüm bir hissəsidir, onun tarixi 170 ili əhatə edir. Həmin müəssisə 170 il bundan əvvəl Genuya şəhərində təsis edilmişdir və bu gün onun fəaliyyəti beynəlxalq səviyyədə həyata keçirilir.

Beləliklə, biz yeni bir səhifəni açırıq, enerjiyə, təmiz enerjiyə keçidi təmin etməyə çalışırıq. Qeyd etmək istəyirik ki, "Ansaldo Energia"nın avadanlıqları bu gün dünyanın bir çox yerlərində istismar olunur və onlar etibarlılığına görə universal şəkildə tanınır. Onlar italyan mühəndisliyinin məhsulu olmaqla yanaşı, İtaliyada istehsal edilmiş ən yaxşı mallarımızın mühüm hissəsidir və biz bundan fərəhlənirik. Bu mənada, beləliklə, əminəm ki, İtaliyanın bacarıqları Azərbaycanda ətraf mühitə dair qanunvericiliyin qoyduğu tələblər əsasında hamı üçün enerjinin təmin edilməsinə yönəlmiş sizin milli energetika planınızı müşayiət edəcək ən yaxşı alət olacaqdır.

Enerji bundan sonra da strateji mövzu olaraq qalacaqdır və İtaliya öz növbəsində sizin enerjiyə keçid prosesində iştirak etmək istəyir. Əlbəttə ki, bərpaolunan enerji sahəsində layihələrə - günəş və külək enerjisinə gəldikdə, sizin layihələrdə iştirak etmək istərdik və beləliklə, bütöv regionu əhatə edəcək həmin bu enerji imkanlarına öz töhfəmizi verə bilərik.

Öz bacarıqları və təcrübəsi ilə İtaliya gələn illərdə də Azərbaycanın geniş energetika planları üçün etibarlı müttəfiq olacaqdır. Həyata keçiriləcək əməkdaşlığa gəldikdə, əminik ki, biz həmçinin digər sənaye sahələrində, o cümlədən kənd təsərrüfatı və yeyinti məhsullarının istehsalında sizinlə işləyə biləcəyik. Biz sizin tərəfinizdəyik, istərdik ki, Azərbaycanın inkişafına və Avropanın enerji təhlükəsizliyinə öz töhfəmizi verək.

Mən bu mərasimdə iştirak edənlərin hamısını ürəkdən salamlayıram və demək istəyirəm ki, gələcək nəsillərin tələbatlarını daha geniş şəkildə təmin edəcək dayanıqlı həyat naminə birgə səylərimizi davam etdirəcək, ölkələrimiz arasında dostluğun möhkəmlənməsi üçün növbəti uğurlu addımlarımızı atacağıq. İstərdim ki, İtaliya ilə Azərbaycan arasındakı tərəfdaşlıq Avropada nümunəvi olsun və biz də bu gün sizin tələbatlarınıza cavab vermək istəyirik.

Bu gün keçirilən bu tədbir ölkələrimiz, hökumətlərimiz və xalqlarımız arasında dostluğun rəmzidir. Biz bu gün daha geniş enerji dayanıqlılığının təmin edilməsinə, infrastrukturumuzun genişləndirilməsinə yönəlmiş addımları atırıq.

Cənab Prezident, bu mərasimdə iştirak etdiyinizə görə Sizə təşəkkürümüzü bildiririk. Biz bilirik ki, Sizin hökumətinizlə işləyərək ölkənizə öz töhfəmizi verəcəyik. Sizə uğurlar arzulayıram.

❖ ❖ ❖

İtaliyanın "Ansaldo Energia" şirkətinin prezidenti **Cuzeppe Marino** çıxış edərək dedi:

- Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyev.

Nazir Urso.

Azərbaycanın rəsmi şəxsləri.

Bu gün burada olmaqdan böyük şərəf və iftixar hissi duyuram, belə bir mühüm tədbirdə, mərasimdə iştirak edirəm.

Mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bu əməkdaşlığa açdığı yola, bizim məhz sənayelərimiz arasında əlaqələrin gücləndirilməsinə verdiyi dəstəyə görə təşəkkürümü bildirirəm. Mən həmçinin Azərbaycanın energetika naziri Pərviz Şahbazova bu layihənin həyata keçirilməsinə verdiyi dəstəyə görə təşəkkürümü bildirirəm. Biz artıq birinci razılaşmanı sizin nazirliklə imzaladıq, indi isə bu təməlqoyma mərasimində iştirak edirik.

*Ardı 3-cü səh.*

# İlham Əliyev müstəqillik dövrünün ən böyük istilik-elektrik stansiyasının təməlini qoydu







*Əvvəli 2-ci səh.*

Mən nazir Ursoya da təşəkkürümü bildirirəm ki, o bizə öz dəstəyini vermişdir. Həmçinin İtaliyanın və Azərbaycanın səfirlərinə təşəkkürümü bildirirəm ki, onlar da bizim işimizə müvafiq dəstək olmuşlar.

Daha sonra isə mən "Azərenerji"yə minnətdarlığımı bildirmək istəyirəm. Baba Rzayevə minnətdaram ki, biz öz aramızda ticari əlaqələri qurduq, bugünkü mərasim təşkil olundu. O, əslində, çox böyük peşəkarlıq nümayiş etdirmişdir. Bizim hazırlıq işləri çox sürətlə həyata keçirilmişdir və faktiki olaraq gəlib elə bir mərhələyə çatmışıq ki, bu layihənin birgə icrasına başlayırıq.

Həmçinin bu gün imzalanmış razılaşmaya əsasən, "Azərenerji" ilə birgə işləyərək gələcəkdə sizin enerji təhlükəsizliyinizə daha böyük töhfə verəcəyik. Qeyd etmək istəyirəm ki, "Ansaldo Energia" bütün öz texnologiyaları və səyləri ilə bu işə töhfəsini verəcəkdir. Onu da deyim ki, fəaliyyətimizin genişləndirilməsi üçün biz artıq Bakıda öz nümayəndəliyimizi açmışıq. Təbii ki, bu, Azərbaycanın bütün sənaye peşəkarları ilə onların italiyalı həmkarları arasında əməkdaşlığın genişləndirilməsinə imkan yaradacaq.

Cənab Prezident, qeyd edildiyi kimi, "Ansaldo Energia"nın çox uzun tarixi var. Biz 170 il ərzində çalışmışıq və bizim loqomuz burada - Azərbaycanda bu mərasimdə nümayiş etdirilir. Cənab Prezidentin burada qeyd etdiyi kimi, yeni stansiya 800 milyon kubmetrə yaxın təbii qaza qənaət edilməsinə imkan yaradacaq. Bunun sayəsində ənənəvi enerji mənbələri ilə yanaşı, təmiz enerjiyə keçid təmin ediləcək. Bu, uzaqgörən bir siyasətdir, planlarınız bizə aydındır və istərdik ki, hər zaman innovasiyalarımızı gətirərək elektrik enerjisi istehsalının daha da təkmilləşdirilməsinə çalışaq. Bununla bərabər, həmçinin bərpaolunan enerji mənbələrini də yaddan çıxarmaq olmaz. Əlbəttə, biz istərdik ki, buraya yeni texnologiyalarla bərabər, yatırımlar da edək. Biz artıq bir ildir ki, yeni bir şirkət yaratmışıq, bunun adı "Ansaldo Green Technologies"dir. Bu yolla gedərək biz nəinki təbii qazın qənaət olunmasına sərmayə yatıracağıq, o cümlədən enerjiyə, təmiz enerjiyə keçid prosesinə bütün gücümüzlə dəstək verəcəyik. Beləliklə, bizim şirkətlərimiz arasında əməkdaşlıq belə imkanlar açacaq. Mingəçevirdə 4 turbin quraşdırılacaq və onlar artıq sınaqdan keçirilib, orada çoxlu iş yeri yaradılacaq. Təbii ki, bizim məhz azərbaycanlı tərəfdaşlarla qurduğumuz əməkdaşlıq ölkənin enerji siyasətinə mühüm töhfə olacaq. Beləliklə, biz bundan sonra da ölkələrimizin enerji təhlükəsizliyinə dayanıqlı şəkildə dəstəyimizi verəcəyik.



Əminliklə deyə bilərəm ki, biz qarşımıza bu işləri qətiyyətlə irəliyə doğru aparmaq məqsədi qoymuşuq. Təşəkkür edirik.

❖ ❖ ❖

Çinin "Dongfang" şirkətinin baş direktoru **Çen Xuacye** çıxış edərək dedi:

- Zati-aliləri Prezident İlham Əliyev.

Zati-aliləri nazirlər.

Xanımlar və cənablar.

Azərbaycanın çox gözəl və şanlı paytaxtı Bakıya bir daha gəlmək mənim üçün çox xoşdur. İlk növbədə, "Dongfang Electric Corporation" şirkəti - DEC adından istərdim xüsusilə Mingəçevir şəhərində 1280 meqavatlıq elektrik stansiyasının təməlqoyma mərasimi ilə əlaqədar təbriklərimi sizə ifadə edim.

Bu gün, doğrudan da, mötəbər bir gündür, hava günəşlidir və hörmətli qonaqlar üçün çox gözəl bir mərasim təşkil olunub. Mən burada bütün hörmətli iştirakçılarla bərabər olmaqdan, bu tarixi anı yaşamaqdan çox sevincliyəm.

"Azərbaycan" İstilik-Elektrik Stansiyası uzunmüddətli fəaliyyəti ilə ölkənin milli iqtisadiyyatına böyük tarixi töhfələr verib. Çox şadıq ki, əsas avadanlıq istehsalçılarından biri olan DEC etibarlı tərəfdaşımız "Azərenerji" tərəfindən dəyərləndirildi və bu layihədə iştirak üçün dəvət edildi. Biz Azərbaycanın yeni istilik-elektrik stansiyasının inşasında 4F sinifli istiliyi toplayan buxar generatorlarını tədarük etməklə iştirakımızdan şərəf duyuruq.

Xanımlar və cənablar, DEC bəziləriniz üçün, bəlkə də, yeni ad ola bilər. Lakin icazənizlə, fürsətdən istifadə edib "Dongfang Electric Corporation" haqqında məlumat vermək istəyirəm. DEC Çinin ən qabaqcıl 52 dövlət müəssisəsindən, dünyanın ən böyük enerji avadanlığı istehsalçılarından və enerji layihəsi podratçılarından biridir. DEC istilik enerjisi, su-elektrik enerjisi, qaz turbin enerjisi, nüvə enerjisi, külək enerjisi və günəş enerjisi layihələrində iştirak edir. Bu ilin əvvəlinə qədər DEC 90-dan çox ölkədəki qlobal istifadəçilərə ümumilikdə 560 qiqavatdan çox enerji istehsal edən qurğular təqdim etmişdir. İstilik enerjisinə gəldikdə, DEC qabaqcıl, min meqavatlıq sinfinə malik ultra superəhəmiyyətli qurğuların istehsalında dünyanın ən məşhur şirkətlərindən biridir. Biz bu sahədə digər şirkətlərlə əməkdaşlıq edirik. Hazırda DEC həmçinin su-elektrik stansiyaları və anbarları üçün yeni enerji sistemləri yaradır.

Xanımlar və cənablar, DEC ilə Azərbaycanın energetika sənayesi arasında dostluq Azərbaycanda tikilməkdə olan ən böyük bərpaolunan enerji layihəsi ilə başlamışdır. Bu, Azərbaycanda ən böyük layihələrdən biri hesab olunur. Bu gün isə biz Azərbaycanın ən böyük elektrik stansiyasının təkmilləşdirilməsi və modernləşdirilməsində iştirak etməkdən daha da böyük qürur duyuruq.

Fürsətdən istifadə edərək DEC adından "Azərenerji"yə səmimi təşəkkürümü ifadə edirəm. Bizim məhsul və xidmətlərimizi seçdiyiniz üçün sizə təşəkkür edirəm. Həmçinin Azərbaycan hökumətinə və aidiyyəti orqanlarına da dərin təşəkkürümü bildirirəm. DEC-yə göstərdiyiniz güclü dəstəyə və köməyə görə minnətdarıq.

Tikiləcək yeni elektrik stansiyası DEC-in Qafqaz bölgəsində həyata keçirdiyi ən böyük enerji layihəsi olduğundan bütün şirkətimiz bu məsələyə çox böyük əhəmiyyət verir. Dizayn, istehsal, quraşdırma və istismara nəzarət xidmətlərində mükəmməlliyə nail olmaq üçün səylərimizi əsirgəməyəcəyik, həmçinin avadanlıq təchizatının və göstəricilərin vaxtında yüksək keyfiyyətlə tamamlanmasını təmin etmək üçün bütün gücümüzdən istifadə edəcəyik. DEC çətinliklərin öhdəsindən gələcək, uğurlu enerji istehsalına nail olmaq, müasir və səmərəli elektrik stansiyası tikmək üçün tam dəstəyini göstərəcək. Biz etimadı doğruldacağıq və Azərbaycan xalqının gələcəyinə öz töhfəmizi verəcəyik. Əminəm ki, yeni elektrik stansiyası nümunəvi elektrik stansiyası kimi xidmət edəcək və regionda yüksəkkeyfiyyətli layihələrdən birinə çevriləcək. Təşəkkür edirəm.

❖ ❖ ❖

Mərasimdə yeni inşa olunacaq istilik-elektrik stansiyası barədə videoçarx nümayiş etdirildi.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Urso stansiyanın təməlini qoydular.

Sonda birgə foto çəkdirildi.

❖ ❖ ❖

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Mingəçevir şəhərində tikilən "Azərbaycan" İstilik-Elektrik Stansiyasının (İES) birinci bloku 1981-ci ildə istismara verilib. Bu stansiya sovet dövründə Cənubi Qafqazın ən böyük istilik-elektrik stansiyası sayılırdı. Məhz bu elektrik stansiyası 1990-cı illərin əvvəlində Sovet İttifaqının dağılması ərəfəsində müstəqil Azərbaycanın enerji tələbatının böyük hissəsini ödəyirdi. Lakin keçid dövründə elektrik stansiyasına baxımsız yanaşma və istismar müddətinin başa çatması əlavə problemlər ortaya çıxarırdı. Buna görə də Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, hər birinin gücü 300 meqavat olan 8 bloklu "Azərbaycan" İstilik-Elektrik Stansiyası 2020-ci ildə tam yenidən qurularaq istismara verilib. Bununla da stansiya dayanmaq təhlükəsindən xilas edilib, ömrü ən azı 20 il uzadılıb, etibarlılıq, dayanıqlılıq, səmərəlilik və təhlükəsizlik təmin edilib, 620 MVt-dan artıq "itirilmiş" güc bərpa olunub. Lakin köhnə nəsil 8 enerji blokunun faydalı iş əmsalı 38,5 faizdən artıq deyil və bu da hər kilovat-saat elektrik enerjisinə sərf edilən şərti yanacağın miqdarının 330 qramdan artıq olması demək idi. Digər tərəfdən, nəinki ölkədə, ümumiyyətlə, Avropada enerjiyə artan tələbat və ixrac imkanlarının genişlənməsi də əlavə tədbirlərin görülməsini zəruri edirdi. Bu səbəbdən də "Azərenerji" ASC-nin mütəxəssisləri tərəfindən "Azərbaycan" İES-in mövcud ötürücü sistem və kommunikasiyalarına inteqrasiya olunmaqla əlavə yeni elektrik stansiyasının layihəsi hazırlandı.

Belə ki, Prezident İlham Əliyevin 2022-ci il oktyabrın 25-də imzaladığı Sərəncama uyğun olaraq, Cənubi Qafqazın ən böyük istilik-elektrik stansiyası sayılan Mingəçevirdəki "Azərbaycan" İES-in ərazisində "Azərenerji" tərəfindən əlavə 1280 meqavat istehsal gücündə yeni elektrik stansiyası yaradılır. Bu məqsədlə yeni elektrik stansiyasında İtaliyanın "Ansaldo Energia" şirkətinin istehsalı olan 4 qaz turbini, 4 generator, Çinin "Dongfang Electric" şirkətinin istehsalı olan 4 util qazan və 4 blok transformator quraşdırılacaq. Bundan əlavə, yeni yüksəktəzyiqli qaz xəttinin, qazpaylayıcı stansiyanın, susoyutma, saf su hazırlanma şəbəkəsinin, idarəetmə və mühafizə sistemlərinin qurulması da həyata keçiriləcək, 500 və 330 kV-luq yarımstansiyalarda kompleks genişləndirmə işləri aparılacaq. Beləliklə, Azərbaycanın enerji sistemində 1280 meqavatlıq yeni və nəhəng elektrik stansiyası yaradılacaq. Bu stansiya "Azərbaycan" İES-in heç bir infrastrukturu olmadan müstəqil istismar edilə biləcək.

Paralel olaraq, ümumi səmərəliliyi artırmaq üçün "Azərbaycan" İES-in 7-ci və 8-ci enerji bloklarının mövcud buxar turbinləri zəmanətli əsaslarla modernləşdirilərək 1280 meqavatlıq yeni stansiya ilə əlaqələndiriləcək. Belə ki, 1280 meqavatlıq yeni elektrik stansiyasının qaz turbinlərində bir dəfə işlənmiş qaz utilizasiya yolu ilə suyu buxara çevirəcək və "Azərbaycan" İES-in 7-ci və 8-ci bloklarının buxar turbinlərində əlavə qaz işlətmədən enerji almağa imkan verəcək. Əlaqələndirmə nəticəsində ümumi güc 1880 meqavat təşkil edəcək və beləliklə, ildə 0,8-1,2 milyard kubmetr qaza qənaət olunacaq. Bu isə o deməkdir ki, yeni stansiyaya qoyulan investisiya maksimum 6 ilə geri qayıdacaq. Eyni zamanda yüksək səmərəliliyə malik generasiya kompleksinin formalaşdırılması ilə faydalı iş əmsalı 18 faiz artırılaraq 56 faizə çatdırılacaq və illik istehsal 12,5 milyard kilovat-saat təşkil edəcək.

Beləliklə, yeni stansiyanın tikilməsi ölkənin enerji dayanıqlılığının təmin olunması, əlavə generasiya güclərinin yaradılması, yüksələn enerji tələbatının qarşılanması, ixrac imkanlarının artırılması, bərpaolunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyasının əks təsirlərinin balanslaşdırılması, ətraf mühitin qorunması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması və regionda yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyətə malikdir. Həmçinin stansiyanın Mingəçevirdə qurulması bu şəhərin əlavə iş yerlərinin yaradılması ilə sosial-iqtisadi inkişafında da mühüm rol oynayacaq.

Yeni elektrik stansiyasının 2025-ci ildə istismara verilməsi nəzərdə tutulur və tikinti prosesini ixtisaslaşmış yerli şirkət həyata keçirəcək. 1280 meqavat gücündə elektrik stansiyası müstəqillik dövründə tikiləcək ən böyük istilik-elektrik stansiyası olacaq.

# Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin dövlət qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aşağıdakı dövlət qulluqçuları "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilsinlər:

Allahverdiyeva Amaliya Kərim qızı
İsmayılova Ruhiyyə Həsən qızı
Məmmədova Elnara Xasay qızı
Rüstəmov Rövşən Rüstəm oğlu
Valehov Ceyhun Ağanəzər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2023-cü il*

# Azərbaycanın Baş naziri ilə Türkiyənin Vitse-prezidenti arasında telefon danışığı olub



Fevralın 13-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay arasında telefon danışığı olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı əsnasında Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələrinin aradan qaldırılması işlərinin gedişi müzakirə olundu, Azərbaycan xilasedicilərinin fəlakət bölgələrində axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirdikləri xüsusi vurğulandı. F.Oktay zəlzələnin ilk saatlarından Türkiyəyə göstərilən mənəvi və humanitar dəstəyə, bu ağır fəlakətin nəticələrinin aradan qaldırılması və çətinliklərlə üzləşən insanlara yardım göstərilməsi üçün bütün imkanlarını səfərbər etdiyinə görə qardaş Azərbaycan dövlətinə və xalqına bir daha dərin təşəkkürünü bildirdi.

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına rəsmi səfər edib



Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Rusiya Federasiyasına rəsmi səfər edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə nümayəndə heyətinin tərkibinə Milli Məclisin Sədr müavini Adil Əliyev, parlamentin komitə sədrləri Ziyafət Əsgərov, Bəxtiyar Əliyev, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov, qrupun üzvləri Sevinc Hüseynova, Əminə Ağazadə, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər daxildirlər. Moskvanın "Vnukovo-2" Hava Limanında nümayəndə heyətini Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Sədr müavini Aleksey Qardeyev, Azərbaycanın bu ölkədəki səfiri Polad Bülbüloğlu və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində bu ölkənin Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodinlə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə tərəflər arasında təkbətək görüş keçirilib. Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilib. Dövlət Dumasının Sədri nümayəndə heyətimizi səmimiyyətlə salamlayaraq, bu səfərin əhəmiyyətini qeyd edib. O, ölkələrimiz arasında münasibətlərin mehriban qonşuluq və qarşılıqlı hörmət əsasında inkişaf etdiyini bildirərək deyib ki, ikitərəfli gündəlikdə kifayət qədər məsələlər var. Ötən il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladan Vyaçeslav Volodin münasibətlərimizin inkişafında dövlət başçılarının rolunu qeyd edərək, deyib ki, parlamentlərimiz də prezidentlər səviyyəsində qəbul olunmuş qərarların qanunvericilik bazasının təmin olunmasına öz töhfəsini verə bilər.

Vyaçeslav Volodin parlamentlərarası münasibətlərin daha da genişləndirilməsinin əhəmiyyətinə toxunub. Onun sözlərinə görə, bu mənada parlament komitələri arasında əməkdaşlıq önəm daşıyır, o cümlədən müxtəlif sahələr üzrə komitələrin imkanlarından istifadə edilməlidir. Milli Məclisin həm Dövlət Duması, həm də Federal Şura ilə münasibətlərinin hazırkı səviyyəsindən məmnunluğunu ifadə edən Vyaçeslav Volodin deyib ki, Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması arasında bu gün imzalanacaq əməkdaşlıq haqqında anlaşma memorandumu münasibətlərimizin yeni mərhələyə qədəm qoymasına şərait yaradacaq.

Söhbətdə Dövlət Dumasının Sədri Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən qəbul edilmiş qərarların həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb

Azərbaycan parlament nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvəliyə görə təşəkkürünü bildirən Azərbaycan parlamentinin spikeri Sahibə Qafarova Milli Məclisin Sədri kimi Rusiya Federasiyasına ikinci dəfə səfər etdiyini xatırladıb. O, ümidvar olduğunu bildirib ki, bu səfər parlamentlərimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə və genişlənməsinə öz töhfəsini verəcək.

Milli Məclisin Sədri Azərbaycan və Rusiya arasında münasibətlərin mehriban qonşuluq və qarşılıqlı anlaşmaya əsaslandığını bildirərək xatırladıb ki, ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunub. O, Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin fevralında Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin imzalanmasını qeyd edərək, bildirib ki, ölkələrimiz arasında münasibətlər dövlət başçıları tərəfindən yaradılmış möhkəm bazaya əsaslanır.

Ölkələrimiz arasında münasibətlərin bir çox sahələri əhatə etdiyini bildirən spiker Sahibə Qafarova iqtisadiyyat sahəsində, o cümlədən qarşılıqlı investisiya qoyuluşunda ötən il qeydə alınan göstəricilərin uğurlu olduğunu qeyd edib. Sahibə Qafarova qeyd edib ki, humanitar sahədə əlaqələr ölkələrimiz arasında əməkdaşlıqda mühüm bir istiqaməti təşkil edir. Bu mənada Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolunu xüsusi qeyd edən Milli Məclisin Sədri fondun dəstəyi ilə keçirilən tədbirlər barədə məlumat verib. O xatırladıb ki, 2019-cu ilin noyabr ayında Moskvada Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan-Rusiya regionlararası forumunun 10 illiyinə həsr olunmuş tədbir keçirilib. Həmçinin fondun dəstəyi və Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə 2022-ci il fevralın 21-dən martın 1-dək Moskvada Azərbaycan mədəniyyəti günləri keçirilib. O bu kimi tədbirlərin münasibətlərimizin inkişafına mühüm töfhə verdiyini diqqətə çatdırıb.

Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycan ilə Rusiya arasında ikitərəfli və çoxtərəfli münasibətlərə müsbət təsir göstərən amillərdən biri də parlamentlərarası əlaqələrdir. O, Dövlət Duması Sədrinin 2022-ci ildə ölkəmizə səfərini xatırladaraq bu cür səfərlərin münasibətlərimizə töhfə verdiyini bildirib. Spiker parlament komitələri arasında əməkdaşlıq, təcrübə mübadiləsi məsələlərinin əhəmiyyətini qeyd edib.

Görüşdə 2020-ci ildə Azərbaycanın öz torpaqlarının 30 ilə yaxın Ermənistan tərəfindən işğalına son qoyduğunu xatırladan Milli Məclisin Sədri deyib ki, torpaqlarımız azad edildikdən dərhal sonra Azərbaycan öz hesabına genişmiqyaslı bərpa və quruculuq işlərinə başladı. Hazırda işğal zamanı dağıdılmış bütün infrastruktur bərpa olunur. "Yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni qəsəbə və kəndlər salınır. Artıq keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtması prosesi başlayıb. Bununla belə, Milli Məclisin Sədri bəzi problemlərin hələ də qaldığını xatırladıb. Bildirib ki, bunlardan biri də mina problemidir. Spiker qeyd edib ki, Ermənistan işğal dövründə ərazilərimizə bir milyondan artıq mina basdırıb. Müharibə başa çatandan sonra da Ermənistan tərəfi Laçın yolundan mina, hərbi sursat və qeyri-qanuni olaraq təbii sərvətlərin daşınması üçün istifadə edir. Müharibədən sonra mina partlaması nəticəsində 280-dən çox Azərbaycan vətəndaşı ya həlak olub, ya da ağır yaralanıb.

Azərbaycanın regionda sülhün və təhlükəsizliyin tərəfdarı olduğunu diqqətə çatdıran spiker Sahibə Qafarova qeyd edib ki, Azərbaycan Ermənistana beynəlxalq hüququn beş prinsipi əsasında sülh müqaviləsinin imzalanmasını təklif edib. Lakin Ermənistanın təxribatları sülh prosesinə mane olur.

Milli Məclisin Sədri bir daha vurğulayıb ki, Ermənistan Laçın yolunun, guya, Azərbaycan tərəfindən bağlanması, Azərbaycan torpaqlarında yaşayan erməni sakinlərinin blokadaya məruz qalmaları, humanitar böhran vəziyyətinin yaranması ilə bağlı uydurma iddialarla beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Laçın yolu boyunca hər gün çoxlu nəqliyyat vasitələrinin - sülhməramlı kontingentin maşınlarının, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, erməni təcili yardım maşınlarının hərəkəti erməni tərəfinin iddialarının yalan olduğunu göstərir. Ermənistan beynəlxalq ictimaiyyəti yanıltmaq məqsədilə manipulyasiya ilə məşğuldur. Spiker Sahibə Qafarova bir daha vurğulayıb ki, Ermənistan üçtərəfli Bəyanatla öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir.

Milli Məclisin Sədri həmçinin İran İslam Respublikasında Azərbaycan səfirliyinə qarşı törədilən terror akti, diplomatik korpusun bir nəfər əməkdaşının həlak olması və iki nəfər əməkdaşının yaralanması haqqında da məlumat verib. Spiker deyib ki, Azərbaycan bu terror hücumunun ədalətli araşdırılmasını və günahkarlarının layiqli şəkildə cəzalandırılmasını tələb edir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Moskvada "Naməlum əsgər" məzarını ziyarət edib



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Rusiya Federasiyasında rəsmi səfərdədir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova səfər çərçivəsində Moskva şəhərinin "Aleksandr" bağına gedərək burada "Naməlum əsgər" məzarının önünə əklil qoyub.

Qeyd edək ki, Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyətinin tərkibinə Milli Məclisin Sədr müavini Adil Əliyev, komitə sədrləri Ziyafət Əsgərov və Bəxtiyar Əliyev, deputatlar - Nizami Səfərov, Əminə Ağazadə, Sevinc Hüseynova, parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər daxildirlər.

***"Azərbaycan"***

# Xarici işlər naziri Ceyhun Bayramov İtaliyanın şirkətlər və "Made in Italy" naziri ilə görüşdü



Fevralın 13-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Urso ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov çoxölçülü strateji tərəfdaşlıq səviyyəsinə yüksələn ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edərək Azərbaycan ilə İtaliya arasında baş tutmuş ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin, o cümlədən İtaliya Prezidenti Sercio Mattarellanın 2018-ci ildə ölkəmizə, Prezident İlham Əliyevin 2020-ci və 2022-ci illərdə İtaliyaya, habelə digər yüksəksəviyyəli səfərlərin bu strateji tərəfdaşlığın daha da gücləndirilməsində mühüm rol oynadığını vurğulayıb.

İki ölkə arasında güclü siyasi əlaqələrdən bəhs edən nazir Ceyhun Bayramov neft-qaz və hazırda elektroenergetika sahəsində reallaşan layihələrin bu əlaqələrdə təməl rol oynadığını bildirib. Bu gün Mingəçevir şəhərində yeni 1280 MVt gücündə istilik-elektrik stansiyasının təməlinin qoyulmasının mühüm hadisə olduğunu qeyd edən nazir layihənin İtaliya-Azərbaycan dostluğunun daha da genişlənməsi nöqteyi-nəzərindən vacib olduğunu diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə İtaliya arasında iqtisadi sahədə səmərəli əməkdaşlıq əlaqələrinin mövcudluğu, bu xüsusda İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı, Azərbaycanın isə İtaliyanın ən böyük enerji təchizatçılarından biri olduğu diqqətə çatdırılıb. Enerji sahəsində əməkdaşlığın genişləndirilməsində "Cənub qaz dəhlizi"nin və onun tərkib hissəsi olan TAP qaz boru kəmərinin əhəmiyyəti vurğulanıb.

İki ölkə arasında təhsil sahəsində əməkdaşlıq məsələlərinə də toxunan nazir Ceyhun Bayramov ötən il İtaliyanın sabiq xarici işlər naziri Luici Di Maionun ölkəmizə səfəri çərçivəsində təməli qoyulmuş İtaliya-Azərbaycan Universitetinin əhəmiyyətindən bəhs edib. Bu xüsusda İtaliya-Azərbaycan Universitetinin inşa edilməsi prosesinin sürətlə davam etdirildiyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov eyni zamanda qarşı tərəfə Vətən müharibəsindən sonra azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işləri, Ermənistanla normallaşma və sülh prosesi barədə ətraflı məlumat verərək İtaliyanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə göstərdiyi dəstəyə görə dərin minnətdarlığını bildirib. Həm 30 illik işğal dövründə Ermənistanın işğalçılıq fəaliyyəti, həm də postmünaqişə dövründə sülh prosesinə törətdiyi maneələr barədə ətraflı məlumat verilib.

İtaliyanın işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərində fəal iştirak edən ölkələrdən biri olduğunu vurğulayan nazir ölkəmiz üçün ən vacib hesab olunan layihələrin məhz İtaliya şirkətlərinə həvalə edilməsindən məmnunluğunu ifadə edib.

Nazir Adolfo Urso öz növbəsində ölkəmizə səfərlərini, o cümlədən Vətən müharibəsi başa çatdıqdan sonra İtaliyanın parlament nümayəndə heyətinin tərkibində Azərbaycana, habelə işğaldan azad edilmiş ərazilərə səfərini məmnunluqla xatırlayıb. Azərbaycanla İtaliya arasında strateji dialoq və əməkdaşlığın əhəmiyyətini qeyd edən A.Urso iki ölkə arasında geniş əməkdaşlıq perspektivlərinin olduğunu diqqətə çatdırıb.

Görüşdə tərəflər bərpaolunan enerji, kənd təsərrüfatı texnikası, əczaçılıq sənayesi, mədəniyyət və digər qarşılıqlı maraq doğuran sahələr üzrə fikir mübadiləsi də aparıblar.

# Avropa Parlamentinin prezidenti tərəfindən ünvanlandığı bildirilən hansısa məktub Milli Məclisə daxil olmayıb

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi Avropa Parlamentinin prezidenti Roberta Metsola tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya məktub ünvanlanması ilə bağlı yerli medianın sualı ilə əlaqədar açıqlama verib.

Açıqlamada deyilir: "Mətbuatda dərc olunan həmin məlumatlarla biz də sosial media vasitəsilə tanış olduq. Lakin nəzərinizə çatdırmaq istərdik ki, Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya Avropa Parlamentinin prezidenti Roberta Metsola tərəfindən ünvanlandığı bildirilən hansısa məktub Milli Məclisə daxil olmayıb. Belə bir rəsmi məktub tərəfimizdən qəbul edildiyi zaman, əlbəttə ki, bu məktuba müvafiq cavab veriləcəkdir".

***"Azərbaycan"***

# SINAQ

## Dövlətləri, prezidentləri, sıravi vətəndaşları daha da doğmalaşdıran fəlakət

Niyə belə etdin, Ulu Tanrım?
Sualımız Sənə etiraz deyil!
Sualımız Sənə qınaq deyil!
Heç Səndən inciməyə haqqımız da yoxdur!
Yerin də, göyün də sahibi Sənsən!
Cəza, mərhəmət, bağışlamaq hökmü də yalnız Sənə məxsusdur!

**Bizi ağrıdan əsrin ən böyük faciəsinin Türkiyədə baş verməsi oldu!**

**Qardaş Türkiyədə!**

**Canı canımızdan, qanı qanımızdan olan türk qardaşlarımız həyatlarının ən böyük faciəsini, ən böyük sarsıntısını, ən böyük dəhşətini yaşadılar!**

*Bütün bu yaşantıları hər bir azərbaycanlı da öz canında, qanında, ürəyində hiss edir!*

*Təbiətin törətdiyi bu fəlakəti öz dərdimiz, öz kədərimiz, öz faciəmiz kimi qəbul edirik!*

*Hələ uzun müddət bu iztirabı və psixoloji şoku ürək ağrısı ilə yaşayacağıq!*

Dağıntılar təmizlənsə, maddi ziyan bağlansa, evlər yenidən tikilib, şəhərlər yenidən salınsa da, faciəli şəkildə dünyasını dəyişənləri geri qaytarmaq heç zaman mümkün olmayacaq!

Doğmalarını dağılmış evlər altında qoyanlar daim səksəkədə yaşayacaq, gözləri ilə onları hər zaman axtaracaqlar!

Yetim qalmış körpələrin qəlbini heç nə ilə ovundurmaq mümkün olmayacaq!

Övlad itirmiş ata-analar daim dərd içində yaşayacaq, gözyaşlarını quruda bilməyəcəklər!

**Aman Tanrım, çox ağır cəza, çox ağır dərd oldu!**

Hakimi mütləq Sənsən!
Məsləhətinə şükür!

❖ ❖ ❖

Bu faciə həm də hamıya ən böyük sınaq oldu.
Dostluğun sınağı...
Qardaşlığın sınağı...
İnsanlığın sınağı...
Birliyin sınağı...
Mərdliyin sınağı...

Dar gündə, dar məqamda dövlətin, millətin, xalqın sınağına çevrildi!

**Azərbaycanda rəsmən nə fövqəladə vəziyyət elan olunub, nə də ümumxalq matəmi!**

**Amma xalq ürəyinin hökmü ilə özünü matəm günlərindəki kimi hiss edir!**

**Hər bir Azərbaycan vətəndaşı tarixinin ən ağır məqamlarından birini yaşayan qardaş Türkiyəyə dayaq durmağa, nə iləsə yardım etməyə çalışır, buna daim cəhd edir, can atır!**

*Kimin nəyə gücü çatırsa...*
*Kimin imkanı necədirsə...*
*Kimin evində gümanı nəyə gəlirsə...*

Hətta ziyan çəkənlərə qız övladları üçün yığdıqları cehizdən də yardım göndərənlər var!

Evdə qonaq-qara üçün saxlanılan işlənməmiş yorğan-döşəyini də paya çevirənlər çoxdur!

**Türk qardaşları darda olan azərbaycanlılar evdə rahat oturub isti yorğan-döşəkdə asudə yatmağa utanırlar...**

**Bunu hamı bir-birinə etiraf edir!**

*Çünki bilirlər ki, darda olan bacı-qardaşları var!*

*Çünki bilirlər ki, soyuq çəkən doğmaları, əzizləri var!*

*Çünki bilirlər ki, canbir, qəlbbir olanları ağır, kədərli, faciəli günlər, saatlar yaşayırlar!*

**Onlar üçün cüzi də olsa, nəsə edəndə özlərinə təsəlli tapırlar, rahatlanırlar, mənən yüngülləşirlər!**

❖ ❖ ❖

Tanrı bu dəfə yerin altını üstünə çevirmək üçün qardaş Türkiyənin, bir qədər də Suriyanın ərazisini seçdi!

Hökmə tabe bəndələrik, bir söz deyə bilmərik!

Amma kənardan baxıb hər şeyi görür, anlayırıq!

*Təsəllimiz odur ki, bizimlə bərabər bu dəhşətli təbii fəlakətə ürəkdən acıyanlar, təəssüflənənlər də çoxdur!*

*Səmimi-qəlbdən kömək edənlər də kifayət qədərdir...*

*İçi bir, zahiri başqa cür olanlar isə xislətlərini gizlətməkdə çətinlik çəkirlər.*

Xüsusən də hüdudsuz, sərhədsiz və qadağasız "söz meydanı" sayılan sosial şəbəkənin mövcud olduğu, zahirlərin batinə çıxarıldığını nümayiş etdirən internet resurslarının əlçatanlığı şəraitində.

**Düşmənlər sevinclərini gizlətməkdə çətinlik çəkirlər!**

**Kəmfürsətlər əllərinə girəvə düşdüyünü fikirləşirlər...**

...KİV-də xəbər yayıldı ki, dövlət səviyyəsində terror hazırlayaraq Azərbaycan səfirliyində qırğın törədən İran bu dəfə erməni qardaşları ilə əlbir olaraq yeni plan cızıblar.

*Fars molla rejimi ilə erməni daşnakları məxfi şəkildə əvvəlcə Azərbaycan əsgərlərinin hərbi paltarında sərhəddəki erməni postuna, sonra isə erməni geyimində Azərbaycan postuna hücum edəcəklər.*

Məqsədləri Azərbaycanın Ermənistana "təcavüzü" və "sabitliyin pozulduğu" görüntüsünü yaradaraq Avropa İttifaqı müşahidəçilərinə "fakt vermək", həm də ölkəmizi "sülh danışıqlarını pozan tərəf" kimi təqdim etməkdir!

**Beləliklə, fars mollaları ilə erməni daşnakları fransız bacılarına anti-Azərbaycan fəaliyyətində yeni dəstək vermək niyyətindədirlər!**

*Elə zənn edirlər ki, Türkiyənin başı fəlakətin nəticələrinin aradan qaldırılmasına qarışıb və Azərbaycan artıq arxasız, köməksiz qalıb!*

Öz ağılları, öz məntiqləri və mənəviyyatları ilə düşünürlər!

**Amma unudurlar ki, "dəmir yumruq" hazır vəziyyətdə gözləyir, qardaş Türkiyə isə hər zaman olduğu kimi, özü, sözü, ordusu ilə yanımızdadır!**

❖ ❖ ❖

Azərbaycan xalqı bu günlərdə özündən çox qardaş Türkiyə barədə düşünməkdədir!

**Dövlət başçısı İlham Əliyev yardım üçün bütün zəruri göstəriş və tapşırıqlarını edib, qardaşı Rəcəb Tayyib Ərdoğana telefon açıb, Türkiyənin Bakıdakı səfirliyinə gedərək başsağlığı verib: "Bu dəhşətli zəlzələ bizi çox sarsıtdı. Yəni hər birimizə böyük mənəvi əzab verdi. Biz qardaşımızın dərdinə şərikik. Yaralılara tezliklə Allahdan şəfa diləyirik".**

*Türkiyəyə köməklə bağlı, hadisələrin gedişi ilə əlaqədar bütün məsələlər hər gün - günün bütün saatlarında Prezidentimizin diqqət mərkəzindədir.*

**Birinci vitse-prezident Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun xətti ilə əlavə yardımlar təşkil edir, xalqın dar gündə olan qardaşlarına gərəkli köməyi üçün əlindən gələni əsirgəmir.**

*Azərbaycan xalqı dövlətin və Heydər Əliyev Fondunun gördükləri işlərlə kifayətlənmir, gecə-gündüz bu qayğı ilə yaşayır.*

**Azərbaycanın hər bir guşəsi, xalqın hər bir üzvü qardaşın dərdini, işini yüngülləşdirmək üçün sutka ərzində rahatlıq bilmədən çalışır.**

**Qardaşlara kömək hərtərəfli və bütün istiqamətlərdədir.**

Fövqəladə Hallar Nazirliyinin əməkdaşları və texnikası, həkim briqadası, çoxsaylı könüllülər, humanitar yardım karvanları fəlakət bölgəsindədir.

İnsanlar öz evlərindəki qızdırıcı cihazları belə xilas olunaraq müvəqqəti çadırlarda qalanlara göndərirlər ki, özləri ötüşərlər.

Maliyyə yardımına da başlanmışdır.

Dövlət başçısının tapşırığına əsasən, Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri Ceyhun Bayramov fəlakət zonasına gedərək vəziyyətlə yerində tanış olmuşdur.

*"Yaman günün ömrü az olar", - demiş atalar!*
*Dost dostu dar gündə sınayar!*
*Bunu da ulularımız söyləmişlər!*

❖ ❖ ❖

Əsrin ən böyük fəlakəti və faciəsi qardaş Türkiyədə baş verdi!
Bu, Tanrının sınağıdır!
Bu, təbiətin sınağıdır!
Bu, dostluğun sınağıdır!
Bu, söz ilə əməlin sınağıdır!

Hər sınaq dost insanları mətinləşdirir, bütövləşdirir, birləşdirir!

*Hər sınaq həm də insanları bir-birinə yenidən tanıdır, dostla düşməni, xeyirxahla bədxahı ayırd etməyə kömək göstərir!*

*Hər sınaq dövlətləri də, münasibətləri də, yaxşı ilə yamanı da saf-çürük edir!*

**Prezident İlham Əliyevin dediyi kimi: "Tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək. Ondan sonra təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər".**

Sınaq həm də gələcəyin düzgün yolunu göstərir.

Həmin yolla kimlərlə addımlayacağını, çiyin-çiyinə, əl-ələ verərək gedəcəyini müəyyənləşdirir!

Türk qardaşlarımızın məşhur misalında deyildiyi kimi: "Hər pisliyin içində bir yaxşılıq da olur!"

*Tanrının bu sınağı həm də Azərbaycanla Türkiyənin birliyinin və qardaşlığının növbəti sınağına çevrildi!*

*Şükürlər olsun ki, hər iki dövlət və xalq bu sınaqdan yenə də uğurla çıxmaqdadır!*

**Bəxtiyar SADIQOV**
























# Bir yumruq, bir ürək, bir can



# Min illərin sınağından çıxmış nümunəvi qardaşlıq münasibətləri

**Azərbaycan-Türkiyə - iki dövlət, bir millət, bir yumruq, bir candır. Xalqlarımız bir ananın övladlarıdır. Yalnız dilimiz, dinimiz bir deyil, sevincimiz də, kədərmiz də birdir. Tarix türkü sınağa çəkəndə çətinliklərdən həmişə birliyimizlə üzüağ, alnıaçıq çıxmışıq.**



















Düşmənin üzərinə birlikdə yürüdüyümüz kimi, dərdin də üzərinə birlikdə getmişik. Yenə Türkiyə sınaq qarşısındadır. Çoxsaylı insan ölümü ilə nəticələnən dəhşətli zəlzələ evləri uçurdub, minlərlə insanı həyatdan alsa da, türkün iradəsini qıra bilməyib. Daha tez toparlanıb ayağa qalxmaq üçün daha sıx birləşmişik. Bir ürək, bir can olmuşuq.

Baş vermiş zəlzələ xəbərini alan xalqımız dərhal ayağa qalxdı. Qardaş ölkəyə köməyə tələsdi. Kimi canı ilə, kimi malı ilə... Günlərdir ki, Azərbaycan xilasediciləri, könüllülər, sıravi vətəndaşlarımız zəlzələ zonasına gedərək dağıntılar altında qalmış insanların həyatını xilas etməklə, dünyasını dəyişənlərin cəsədlərini uçqunlar altından çıxarmaqla məşğuldurlar. Zəlzələ bölgəsində çalışan, hərəkət edən bütün nəqliyyat növlərinin yanacaq təminatını Azərbaycan öz üzərinə götürüb. Günlərdir ki, insanlarımız evlərində rahatlıq tapa bilmirlər. Qardaş ölkəyə yardım etmək üçün bacardıqlarını əsirgəmirlər. Bakıda, rayonlarda Türkiyədə zəlzələdən zərərçəkənlərə yardım məntəqələri yaradılıb. Toplanan yardımlar hər gün böyük maşın karvanı ilə qardaş ölkəyə yola salınır.

Təbii fəlakət baş verən gündən qapılarını yardımsevər insanlarımızın üzünə açan Heydər Əliyev adına İdman-Konsert Kompleksində olduq. Günlərdir ki, insanlar buraya sel kimi axışaraq sevgilərindən, mərhəmətlərindən qardaş ölkəyə pay göndərirlər. İlk həmsöhbətimiz Azərbaycan Memarlıq və İnşaat Universitetinin birinci kurs tələbəsi Aqil Şıxəliyev oldu:

- Türkiyədə zəlzələ olması xəbəri məni çox sarsıdıb. Düşünəndə ki dağıntıların altında körpələr, uşaqlar, gənclər, bir sözlə, günahsız insanlar yatırlar, dəhşətə gəlirsən. Heç cür qəbul edə bilmirsən ki, bir zamanlar sevincli, fərəhli günlər yaşadıqları evləri o insanlara məzar oldu. Ömürləri yarımçıq qaldı... Minlərlə insanın evləri ilə birlikdə arzuları, xəyalları paramparça oldu. Bilirəm ki, gətirdiyim kiçik bir yardımla bu dərdə dərman ola bilmərəm. Amma qəlbim bir az rahat olur ki, mən də nə isə etdim. Özümə paltar almaq üçün topladığım pula bir az isti geyim, ayaqqabılar alıb yardım üçün bura gəlmişəm. İnanıram ki, xalqlarımız bu tarixi sınaqdan da birlikdə üzüağ çıxacaqlar.

Başqa bir həmsöhbətimiz isə Xəzər Universitetinin əməkdaşı Mustafa Həsənli oldu:

- Qardaş ölkədə böyük faciəyə səbəb olan zəlzələ xəbərini eşidən kimi universitetimizdə dərhal yardım komitəsi yaratdıq. Kollektivimizin üzvləri, tələbələrimiz həmin andan bacardıqlarını etməyə çalışdılar. Qısa müddətdə xeyli paltar, ərzaq, zəruri gündəlik tələbat malları, uşaq geyimləri topladıq. Bizim bura birinci gəlişimiz deyil. Hər gün topladığımız yardımı gətirib təhvil veririk. Bu yolla qardaşlarımızın dərdini bölüşməyə çalışır, mənəvi dayaq olduğumuzu bildirmək istəyirik.

Qeyd edək ki, Heydər Əliyev adına İdman-Konsert Kompleksində təşkil olunan yardım kampaniyası "Türkiyə Yüzyılə Birlik və Dayanışma Platformu Azərbaycan"ın təşəbbüsü və təşkilatçılığı ilə başlanılıb.

Toplanan yardımın çeşidlənib, qablaşdırılıb qardaş olkəyə yola salınması işinin təşkilatçılarından olan türk vətəndaşları ilə də görüşüb söhbətləşirik. Onlardan biri Cengiz Aygör deyir ki "Türkiyə Yüzyıle Birlik və Dayanışma Platforması" adından başlanılan yardım kampanıyası bu gün də davam edir. İndiyə kimi buradan 117 TIR yardım Türkiyəyə yola salınıb. Sağ olsun azərbaycanlı qardaşlarımızı. Gördüyünüz kimi, bura yardım gətirən insanların ardı-arası kəsilmir. Bura gələn yardımsevərlərin 95 faizi azərbaycanlılardır. Onu da deyim ki, Azərbaycanda yaşayan və işləyən başqa ölkələrin vətəndaşları da bu kampaniyada fəal iştirak edirlər. Xüsusilə pakistanlılar köməklərini əsirgəmirlər.

Günün birinci yarısına kimi 5 maşınlıq yardım toplanıb və hələ ardı gəlir. Mənə verilən fürsətdən istifadə edib boğazından kəsib yardım edən hər kəsə, eyni zamanda yardımı çeşidləyib, qablaşdırıb, avtomobillərə yükləyən insanlara çox "sağ olun", "var olun" deyirəm. İnsanlar gecə-gündüz burada dayanmadan çalışırlar. Əvvəlki günlər hər gün burada 1000 nəfərdən çox adam yardımın çeşidlənib, qablaşdırılıb maşınlara yüklənməsi ilə məşğul olurdu. Hazırda isə burada 400 adam çalışır. Onların da əksəriyyəti könüllü gənclərdir .

Onu da qeyd edim ki, bizə maddi yardım göstərmək üçün çoxsaylı müraciətlər olur. Amma biz burada kəskinliklə pul yardımı götürmürük. Pulla yardımı etmək istəyənlərə izah edirik ki, maddi yardımlarını Türkiyə Ziraət Bankı və YAPI Kredi bankları vasitəsi ilə etsinlər. Adlarını qeyd etdiyimiz banklar komissiya tutmadan bu işi həyata keçirirlər. Maddi yardım etmək istəyən bacı-qardaşlarımıza bildirmək istəyirəm ki, dünəndən etibarən böyük elçiliyimizin hesabı açılıb. Maddi yardım etmək istəyənlər böyük elçiliyimizin bank kartı hesabı ilə yardımlarını edə bilərlər.

Yardımları çeşidləyib, qablaşdıran gənc könüllülərlə də söhbət edirik. Fərhad Ələkbərli deyir: "Yardım kampanıyası başlayan ilk gündən buradayam. Gecələr də burada qalıram. Neçə gün bu kampaniya davam edəcəksə, işimi davam etdirəcəyəm. Bunu özümə mənəvi borc bilirəm və rahatlıq tapıram". Könüllü gənclərimizdən Ziya Hüseynli, Məryəm Ələkbərova və Natəvan Rzayeva da 5 gündür ki, fasiləsiz olaraq Heydər Əliyev adına İdman-Konsert Kompleksində toplanan yardımın çeşidlənib qablaşdırılması ilə məşğul olurlar. Məryəm deyir ki, yardımın həcmi artdıqca özümüzdə təsəlli tapırıq. Hər maşın yola salınanda elə düşünürük ki, türkiyəli bacı-qardaşlarımıza bir dünya sevgi yola salırıq.

Yardım gətirənlər arasında təqaüdçü müəllim Əlvahid Şıxəliyev də var idi. Əlvahid müəllim deyir ki, uşaq vaxtlarımda valideynlərimdən "Türklər gəldi bizi xilas etdi, "Nuru Paşa gəlməsəydi, ermənilər bizi tamamilə məhv edəcəkdilər" sözlərini çox eşitmişəm. Həmişə dar gündə türk qardaşlarımızın dadımıza çatdığı barədə söhbətlərin şahidi olmuşam. Son illər bu dostluq, qardaşlıq daha da möhkəmlənib. Türkiyədə zəlzələ olması xəbəri məni sarsıtdı. Gənc olsaydım, gedib orada çalışar, əlimdən gələni edərdim. İndi imkanım pensiyama çatır. Uşaq paltarları almışam. Hesab edirəm ki, bu yardımımla bir şey edə bilməsəm də, özümü mənəvi əzabdan qismən qurtarmış olaram.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# *Türkiyə mediası:* "Qardaş ölkə Azərbaycanın axtarış-xilasetmə qrupları zərərçəkənlərin yardımına tələsir"



















Türkiyə mediası Azərbaycan Prezidentinin və xalqının qardaş ölkədə baş verən təbii fəlakət bölgələrinə yardımlarına, göstərdiyi maddi-mənəvi dəstəyə dair informasiyalara geniş yer ayırmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, nüfuzlu media qurumlarında yayılan informasiyalarda Prezident İlham Əliyevin məsələyə son dərəcə həssas münasibəti, maddi vəziyyətindən asılı olmayaraq, hər bir azərbaycanlının qardaş Türkiyəyə yardım göstərməsi, Türkiyənin zəlzələ bölgəsi üçün beynəlxalq yardım çağırışından sonra axtarış-xilasetmə qrupları göndərən ilk ölkənin Azərbaycan olduğu barədə xəbərlər yenə də əsas yer tutur.

"Anadolu" Agentliyi azərbaycanlı axtarış-xilasetmə qruplarının zəlzələ baş vermiş bölgələrdə gecə-gündüz çalışmaları davam etdirdiyini yazır. Məqalədə həmçinin azərbaycanlı axtarış-xilasetmə qruplarının nümayəndələrindən müsahibələri yer alıb. Onlar xilas etdikləri uşaqları öz uşaqları kimi gördüklərini, yaralıları canla-başla həyata bağlamağa çalışdıqlarını deyiblər.

"milliyet.com" nəşrində yayımlanan məqalədə Azərbaycanın Türkiyəyə dəstəyinin davam etdiyi qeyd edilib. Bildirilib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, Türkiyədə meydana gələn şiddətli zəlzələnin nəticələrinin aradan qaldırılmasına dəstək məqsədi ilə Azərbaycan Fövqəladə Hallar Nazirliyi hər cür tibbi avadanlıq və ləvazimat ilə təchiz olunmuş İkinci Səhra Xəstəxanasını Türkiyəyə göndərib.

Saytda eyni zamanda Türkiyənin və Azərbaycanın xarici işlər nazirlərinin açıqlamaları yayımlanıb. İlk yardım heyətini göndərən ölkənin Azərbaycan olduğunu deyən Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu daha əvvəl Antalya və Muğlada çıxan yanğınlarda da ilk yardıma gələn ölkənin Azərbaycan olduğunu deyib.

Portalda həmçinin "Qalatasaray"ın baş məşqçisi Okan Burukun zəlzələnin ilk anından yardım göndərən Azərbaycan xalqına təşəkkür mesajı yayımlanıb.

"sabah.com.tr", "trt.net.tr", "doğruhaber.com.tr" digər saytlarda yerləşdirilən xəbərlərdə Türkiyədə zəlzələdən sorna bölgəyə ilk gələn xarici işlər nazirinin və ilk yardım heyətinin Azərbaycan olduğu qeyd edilib. Eyni zamanda Azərbaycanın və Türkiyənin xarici işlər nazirlərinin açıqlamaları da məqalələrdə qeyd edilib.

# Yardıma gedən azərbaycanlı könüllülər Türkiyə mətbuatında




Qardaş ölkədə baş verən dəhşətli zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə fevralın 10-da Azərbaycandan yola düşən ilk könüllü qrupu barədə xəbər Türkiyə mediasında geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, "DHA", "SABAH", "SonDakika" kimi aparıcı xəbər portallarında "Zəlzələ bölgəsində çalışan azərbaycanlı heyətə daha yeni qrup yardıma gəldi" başlığı ilə xəbərlər yayımlanıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan dövləti tərəfindən zəlzələdən zərərçəkmiş qardaş türk xalqına yardım məqsədilə həyata keçirilən və xalqımızın da böyük dəstək verdiyi genişmiqyaslı tədbirlərə Azərbaycanın könüllü gəncləri də qoşulublar. Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə "ASAN Könüllüləri", "Gənc Könüllülər", "BİR Könüllü", "Aqrar İnkişaf Könüllüləri", "Naxçıvan Könüllüləri", "Böyük Qayıdış" könüllüləri və "Ekokönüllülər" təşkilatlarının üzvləri arasından daha təcrübəli və çətin şəraitdə fəaliyyət göstərməyə hazır olan 100 gənc müəyyən edilərək, ilkin təlimat keçdikdən sonra türkiyəli həmkarlarına dəstək vermək üçün qardaş ölkəyə yola düşüblər.

Könüllülər artıq Kahramanmaraş bölgəsinə çataraq fəaliyyətə başlayıblar.

# Bütün bölgələrimiz qardaş ölkə üçün səfərbərdir






## Ağstafa

Türkiyədə baş verən dəhşətli zəlzələ hər birimizi sarsıtdı. Faciə baş verən andan Azərbaycan qardaş Türkiyənin yanında olduğunu bəyan etdi. Öncə zəlzələ baş vermiş ərazilərə ilkin yardım məqsədilə xilasedicilər getdilər. Sonra zəlzələdən ziyan çəkənlərə humanitar yardımlar, ardınca həkimlər, könüllülər, xilasedicilər göndərildi.

Heydər Əliyev Fondu və qeyri-hökumət təşkilatları bu təşəbbüsə ilk qoşulanlardan oldu. Özəl sektor da təbii fəlakətə məruz qalanlara öz dəstəyini əsirgəmir. Bir sözlə, bütün Azərbaycan hər zaman türk xalqının yanında olduğunu sübut etdi.

Belə bir dövrdə Ağstafa rayonunun sakinləri də əllərindən gələni əsirgəmirlər. Onlar müxtəlif qida məhsulları, qış geyimləri, elektrik generatorları, qızdırıcılar, çadırlar, müxtəlif ərzaq və dərman ləvazimatları gətirərək humanitar yardım məntəqələrinə təhvil verirlər.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Əziz Məsmalıyevin sözlərinə görə, bu işdə bütün rayon sakinləri, o cümlədən rayon gəncləri və idmançıları, Gənclər Evi və Sosial Xidmət Müəssisəsinin kollektivləri, Vətən müharibəsinin qaziləri və veteranları, şəhid ailələrinin üzvləri xüsusi fəallıq göstərirlər.





## Gədəbəy

Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə yardım üçün ölkəmizdə keçirilən humanitar yardım kampaniyası davam edir. Bu aksiyada gədəbəylilər də fəal iştirak edirlər.

Rayonun müxtəlif ərazilərində yardımların toplanması üçün xüsusi məntəqələr yaradılmışdır. Rayon sakinləri tərəfindən gətirilən yataq dəstləri, isti geyimlər, uşaq bezləri, təmizlik ləvazimatları, konservləşdirilmiş qidalar, quru ərzaqlar, eləcə də digər zəruri yardımlar təyin olunmuş məntəqələrdə çeşidlənir və qablaşdırılaraq yola salınır. Rayon icra hakimiyyəti başçısının müavini Vüsal Musayev deyir ki, Türkiyədə baş verən zəlzələ nəticəsində qardaş və bacılarımızın dərdinə şərik olmağa, onlara dəstək verməyə çalışırıq. Bu dəstək və qardaşlıq köməyi davamlı olacaq.

## Goranboy

Türkiyənin bu ağır günlərində goranboylular da Azərbaycan dövlətinin və xalqının qardaş ölkəyə yardım kampaniyasına fəal qoşularaq əllərindən gələnləri əsirgəmirlər.

Rayon icra hakimiyyəti başda olmaqla, bütün yerli qurumlar, xidmət sahələri, özəl sektor, bir sözlə, bütün goranboylular bu yardım kampaniyasında fəal iştirak edirlər.





Bu günlər isə rayonda hər cür məişət şəraiti ilə təmin olunacaq və hər birində 12 nəfərin yaşaya biləcəyi modul tipli 5 fərdi yaşayış evinin hazırlanmasına başlanılmışdır. Artıq rayon icra hakimiyyəti ilə "Container Baku" şirkəti arasında müvafiq müqavilə imzalanmışdır. Evlər hazır olandan sonra Kahramanmaraşa göndəriləcək.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*





## Qax və Daşkəsən

Türkiyədə baş verən güclü zəlzələ nəticəsində zərərçəkənlərə ölkəmizin hər yerində ümumxalq yardımı davam edir. Digər bölgələr kimi, Qax və Daşkəsən rayonları da qardaş ölkəyə bu yardım aksiyasına qoşulub.

AZƏRTAC xəbər verir ki, qardaş Türkiyəyə yola salınmaq üçün Qax və Daşkəsən Rayon İcra hakimiyyətlərinin xətti ilə humanitar yardımlar fevralın 13-də Gəncə şəhərində təyin olunmuş məntəqəyə təhvil verilib.

Qax Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tahir İsmayılov bu yardımların davamlı olacağını bildirərək deyib: "Türkiyədə baş verən zəlzələ nəticəsində qardaşlarımızın, bacılarımızın dərdinə şərik olmağa, onlara dəstək verməyə çalışırıq. Gətirilən humanitar yardıma uşaqlar üçün isti geyimlər, həmçinin yataq dəstləri, qızdırıcılar və qida məhsulları daxildir".

Qeyd edək ki, toplanan yardımlar könüllülər tərəfindən çeşidlənir, qablaşdırılır, avtomobillərə yüklənərək qardaş ölkəyə yola salınır.

"Azərbaycan zəlzələ baş verən ilk andan qardaş türk xalqının yanında olduğunu bəyan etdi. Biz də Daşkəsən Rayon İcra Hakimiyyəti olaraq qida məhsulları, qış geyimləri, generatorlar, qızdırıcılar, çadır, ərzaq, dərman ləvazimatları və digər əşyalar gətirmişik", - deyə Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Namiq Süleymanov deyib.

Qardaş Türkiyəyə yola salınmaq üçün ölkəmizin bütün bölgələrindən humanitar yardımların göndərilməsi davam edir.










## Lənkəran

Fevralın 6-da qardaş Türkiyədə baş verən dağıdıcı zəlzələdən zərər görmüş insanlara yardım məqsədilə Lənkəran rayonunda da humanitar yardım kampaniyası həyata keçirilir. Kampaniya zamanı toplanan hazır qida məhsulları, qış geyimləri, eləcə də 15 ton Lənkəran düyüsü və 1 ton Lənkəran çayı Kahramanmaraş şəhərinə göndərilib.







## Astara

Türkiyədə geniş dağıntılara və insan itkisinə səbəb olan güclü zəlzələ astaralıları da qardaş ölkəyə yardım üçün səfərbər etmişdir. Bu məqsədlə rayonda təbii fəlakət baş verən gündən humanitar yardım kampaniyası həyata keçirilir. Ümumi çəkisi 4 ton olan humanitar yardım artıq Türkiyəyə yola salınmışdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*





## Oğuz

Türkiyəyə göndərilən humanitar yardıma Oğuz rayonu da qatılıb. AZƏRTAC xəbər verir ki, rayon icra hakimiyyəti tərəfindən göndərilən humanitar yardım Gəncə şəhərində təyin olunmuş məntəqəyə təhvil verilib. Oğuz Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə gətirilən yardım konservləşdirilmiş qida məhsullarıdır. Qeyd edək ki, Gəncədən qardaş Türkiyəyə 11 TIR yardım karvanı yola düşüb.





## Tərtər

Qardaş Türkiyədə baş vermiş güclü zəlzələdən zərərçəkənlərə humanitar yardım kampaniyasına ölkəmizin digər bölgələri kimi, Tərtər rayonu da qoşulub. AZƏRTAC xəbər verir ki, tərtərlilər - ayrı-ayrı iş adamları, şəhid anaları, qazilər, sadə vətəndaşlar Türkiyədə dağıdıcı zəlzələdən zərərçəkmiş insanlar üçün qış paltarları, yataq, yorğan, döşək dəstləri, zəruri gigiyenik vasitələr və ərzaq yardımları toplayıblar. Toplanan yardımlar xüsusi ayrılmış nəqliyyat vasitəsilə Tərtərdən Gəncə şəhərində yerləşən Türkiyə Konsulluğuna yola salınıb.








## Qusar

Qardaş Türkiyədə baş vermiş güclü zəlzələdən zərərçəkənlərə humanitar yardım kampaniyasına ölkəmizin digər bölgələri kimi, Qusar rayonu da qoşulub.

AZƏRTAC xəbər verir ki, Qusardan olan ayrı-ayrı iş adamları, şəhid anaları, qazilər, sadə vətəndaşlar Türkiyədə dağıdıcı zəlzələdən zərərçəkmiş insanlar üçün tibbi ləvazimatlar, qış paltarları, yorğan-döşək, məişət avadanlıqları, zəruri gigiyenik vasitələr və ərzaq yardımları toplayıblar.

Qusar Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən kampaniya çərçivəsində ümumilikdə 104 min manatlıq yardım yığılıb.

Toplanan yardımlar xüsusi ayrılmış nəqliyyat vasitəsilə Qusar şəhərindən Bakıya yola salınıb.



# Heydər Əliyev İli 2023



# Heydər Əliyevin ədəbiyyat siyasəti və müasir dövr

**Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev universal dünyagörüşə və qeyri-adi yaddaşa malik olub, cəmiyyət həyatının bütün sahələrinə dair dərin bilikləri və bacarıqları ilə insanları heyrətləndirmişdir. Məhz dahi şəxsiyyətin çoxcəhətli fəaliyyəti sayəsində Azərbaycanda bütün istiqamətlər üzrə hərtərəfli inkişafa nail olunmuş, daha böyük gələcəyin möhkəm əsasları yaradılmışdır.**

Görkəmli dövlət xadimi Heydər Əliyevin taleyində və siyasi fəaliyyətində ədəbiyyat faktorunun da yeri, rolu və imkanları çox geniş anlayış olub, ölkənin və xalqın tanıdılmasından tutmuş, milli ideologiyanın formalaşdırılmasına qədərki geniş vəzifələri əhatə etmişdir. Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimlərindən biri idi. Hələ gənclik illərindən etibarən qeyri-adi mütaliə qabiliyyəti ilə fərqlənən, hətta cavan yaşlarında tamaşalarda peşəkar teatr xadimləri ilə yanaşı, cəsarətlə səhnəyə çıxan Heydər Əliyevin dünyabaxışının formalaşmasında ədəbiyyat amili xüsusi yer tutmuşdur. Müasirləri onun "Vaqif" pyesində, "Qaralar ölkəsində" adlı dram əsərində əsas rolları ifa etdiyini xatırlayırlar. Hətta Heydər Əliyevin teatr həvəskarı olmasına dair nadir fotoşəkillər də ölkəmizin muzeylərində və arxivlərində qorunub saxlanmaqdadır. Böyük tarixi şəxsiyyət olan Heydər Əliyev bədii ədəbiyyatın şəxsi taleyindəki böyük rolunu 1997-ci ildə keçirilən Azərbaycan yazıçılarının onuncu qurultayındakı nitqində aşağıdakı kimi etiraf etmişdir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu, "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam".

Əlbəttə, görkəmli dövlət xadimi Heydər Əliyevin də xüsusi rəğbət bəslədiyi yazıçı və şairlər, ayrıca fərqləndirdiyi, üstünlük verdiyi bədii əsərlər olmuşdur. Müsahibələri və çıxışlarında aydın olur ki, Heydər Əliyev dram əsərləri içərisində Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasına, şairlərdən Xalq şairi Səməd Vurğunun "Azərbaycan" şeirinə, poema baxımından Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasına, milli mətbuat sırasından "Molla Nəsrəddin" jurnalına, opera üzrə Üzeyir bəy Hacıbəylinin "Koroğlu"suna, mənzum faciələrdən Hüseyn Cavidin "İblis" əsərinə... xüsusi önəm verdiyini nəzərə çarpdırmışdır. Bütün məqamlarda Heydər Əliyevin bədii ədəbiyyata münasibətdə şəxsi maraqları ilə dövlətçilik düşüncəsinin üst-üstə düşdüyü, bir-birini tamamladığı aşkar müşahidə olunur.

Ədəbiyyata xalqın taleyinin və tarixi yaddaşının əks-sədası kimi baxan Heydər Əliyev bədii düşüncədə tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi dəyər vermişdir. Bu prinsiplər qüdrətli dövlət xadiminin siyasi fəaliyyətinin də təməl şərtlərindəndir. Həmin istiqamətlər Heydər Əliyevin siyasi təlimində dövlətçilik fəaliyyəti ilə ədəbiyyat işinin vəhdətdə, üzvi əlaqədə olduğunu göstərir.

Görkəmli dövlət xadimi Heydər Əliyev dövlətçilik fəaliyyəti prosesində millilik amilini, tarixilik anlayışını və müasirlik prinsipini ardıcıl olaraq həyata keçirmək uğrundakı mübarizəsində ədəbiyyatda dərin iz salmış, köklü ənənələrə malik olan bu amillərdən yerli-yerində, əsaslı şəkildə faydalanmaqla özünün ali məqsədinə nail olmağa çalışmışdır. Bu yüksək ali qayə isə hələ sovet rejimi çərçivəsində olsa belə, Azərbaycanda möhkəm milli əsaslara malik, davamlı tarixi ənənələri qoruyub saxlayan və müasir inkişafın önündə gedən dövlət hakimiyyətini formalaşdırmaqdan ibarət olmuşdur. Müşahidələr və təhlillər göstərir ki, sovet hakimiyyəti illərində Heydər Əliyevin bu istiqamətdə apardığı ardıcıl və düşünülmüş siyasəti özünün böyük bəhrələrini vermişdir. Belə ki, o, siyasi rejimin yaratdığı çətinliklərə baxmayaraq, Azərbaycan yazıçılarının, xüsusən, böyük demokrat Cəlil Məmmədquluzadənin, Xalq şairləri Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, bir qədər sonra Sabir Rüstəmxanlı kimi sənətkarların ana dili uğrunda apardıqları milli mücadiləyə dövlət səviyyəsində müəyyən üsullarla meydan açmışdır. Və bu, nəticə etibarilə Heydər Əliyevin xalq arasında və mərkəzi hökumətdə Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması üçün zəruri olan ictimai rəyin hazırlanmasında mühüm rol oynamışdır.

Cəmiyyətdə gedən ümummilli prosesləri zaman-zaman mərkəzi hökumətin diqqətinə çatdırmaqla və məsələyə siyasi büro səviyyəsində aydınlıq gətirməyi bacarmaqla Heydər Əliyev sovet hakimiyyəti illərində, 1978-ci ildə Azərbaycan dilinin dövlət dili kimi ölkənin Konstitusiyasına ayrıca maddə kimi daxil edilməsinə nail olmuşdur. Bununla yanaşı, bu uzaqgörən dövlət xadiminin Azərbaycana rəhbərliyi dövründə milli mücadiləyə könül vermiş, ömür həsr etmiş yazıçılar və alimlər deputat seçilmək, fəxri adlar və dövlət mükafatları almaqla rəğbətləndirilmiş və müdafiə olunmuşlar. Əslində, bu yolla Heydər Əliyev həm də ümummilli ideallara xidmət edən ziyalıların fəaliyyətinə dəstək verdiyini cəmiyyətə çatdırmış, onların toxunulmazlığına təminat vermişdir.

Keçən əsrin 70-ci illərində Heydər Əliyevin Azərbaycanın bir qrup görkəmli dilçi alimlərini: Muxtar Hüseynzadəni, Əlövsət Abdullayevi, Yusif Seyidovu, Ağaməli Həsənovu çoxcildlik "Müasir Azərbaycan dili" dərsliyinə görə respublikanın Dövlət mükafatı ilə təltif etməsi də ictimai-siyasi və ədəbi-mədəni mühitdə ana dilinin mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət edirdi. Bununla Heydər Əliyev hələ XVI əsrdə Şah İsmayıl Xətai ilə başlanan, zaman-zaman qabarıb-çəkilən ana dili siyasəti məsələsini ilk dəfə rəsmi olaraq dövlət siyasəti səviyyəsində həyata keçirməklə başa çatdırmışdır.

Bundan başqa, millətin və ölkənin bütövlüyü düşüncəsinin cəmiyyətdə formalaşdırılmasında da Heydər Əliyev ədəbiyyat faktorundan məqsədyönlü şəkildə faydalanmışdır. XX əsrin yetmiş-səksəninci illərində, sərt sovet rejimi çərçivəsində cənub mövzusunda yazılmış əsərlərə dövlət səviyyəsində bəslənilən loyal münasibətlərin kökündə Cənubi Azərbaycanla bağlı ictimai fikri formalaşdırmaq tendensiyası dayanırdı. Nəhayət, Azərbaycan dövlətinin rəhbəri Heydər Əliyevin 12 iyun 1981-ci ildə ölkə yazıçılarının VII qurultayındakı nitqində cənub ədəbiyyatı ilə əlaqədar söylədiyi aşağıdakı fikirlər Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin yaradılmasına, dəmirdən də möhkəm olan prinsiplər əsasında formalaşdırılmış ideoloji məhdudiyyətlərin aradan qaldırılmasına münasib şərait yaratmışdır: "Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq ittifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmləndirmək, mədəniyyətin və mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır".

O zamana qədər nəinki hətta nisbətən sərbəstlik imkanlarına malik olan yazıçı və şairlərdə, heç bir siyasətçi keçmiş Sovetlər İttifaqı məkanında Cənubi Azərbaycan, yaxud cənub ədəbiyyatı haqqında rəsmi yığıncaqlarda bir kəlmə belə danışa bilməmişdi. Bu, təkcə Azərbaycanda yox, geniş mənada sovet dövlətində həmin mövzuda açıq ifadə edilən ilk mühüm tezislər idi. Bu tezislərin işığında XX əsrin səksəninci illərindən etibarən elmi-ədəbi mühitdə Azərbaycan ədəbiyyatının bütövlüyü və cənubda yaşayan yazıçılarla əlaqələrin yaradılması istiqamətində ilk addımlar atılmağa başlamışdır. İran İslam Respublikasında yaşayan Məhəmmədhüseyn Şəhriyar kimi qüdrətli sənətkar Azərbaycanda dövlət səviyyəsində səslənən bu cür bəyanatlardan sonra ölkəmizdə geniş dairədə tanıdılmışdır.

Həmin dövrdə Xalq şairləri Süleyman Rüstəmin və Məmməd Rahimin Məhəmmədhüseyn Şəhriyarla şeirləşmələri, Xalq şairləri Bəxtiyar Vahabzadə və Nəbi Xəzrinin ustad şairlə telefon danışıqları ictimai-ədəbi mühitdə ildırım kimi çaxmışdır. Yaxud əslən cənublu olan, lakin taleyin hökmü ilə Azərbaycanın şimalında yaşayıb-yaradan Balaş Azəroğlu, Mədinə Gülgün, Hökümə Bülluri, Söhrab Tahir, Əli Tudə və başqaları kimi görkəmli söz ustalarının əsərləri ilə Cənubi Azərbaycanla əsaslı tanışlıq da məhz keçən əsrin səksəninci illərindən etibarən baş vermişdir. Eyni zamanda həmin dövrdən başlayaraq Azərbaycan ədəbiyyatında cənub mövzusunda yeni əsərlər meydana qoyulmuşdur. Azərbaycan Yazıçılar Birliyində və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı şöbələrinin təşkili və çoxcildlik Cənubi Azərbaycan ədəbiyyatı antologiyalarının hazırlanıb nəşr edilməsi, ədəbi ictimaiyyətə çatdırılması görkəmli dövlət xadimi Heydər Əliyevin atdığı qətiyyətli addımların, açdığı yeni üfüqlərin sayəsində mümkün olmuşdu.

Heydər Əliyevin ədəbiyyat təlimindəki millilik anlayışı özündə bütün dolğunluğu ilə azərbaycançılıq məfkurəsini əks etdirir. Və yaxud da azərbaycançılıq Heydər Əliyevin apardığı milli dövlətçilik siyasətinin lokomotividir. Azərbaycan ədəbiyyatı klassiklərindən Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Cəlil Məmmədquluzadənin, Nəriman Nərimanovun, Hüseyn Cavidin, həmçinin yeni dövr bədii fikrimizin Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Süleyman Rüstəm, Anar, Elçin, Qabil, Məmməd Araz, Mirvarid Dilbazi və başqaları kimi onlarla nümayəndələrinin dövlət səviyyəsində yubileylərinin keçirilməsi, aparılan tədqiqat-təbliğat işləri həmin sənətkarların xalqa daha yaxından tanıdılması ilə bir sırada, həm də azərbaycançılıq ideyasının geniş miqyasda yayılmasına və dərindən mənimsədilməsinə uğurla xidmət etmişdir.

Heydər Əliyev keçmiş ittifaq səviyyəsində ən yüksək siyasi dairələrdə böyük cəsarətlə bəyan edirdi ki, "Nizami Gəncəvi elə bir şəxsiyyətdir, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər". Nizami Gəncəvinin yubileyi bu böyük sənətkarın timsalında Azərbaycanın əvvəlcə keçmiş Sovetlər İttifaqında, daha sonra isə bütün dünyada tanıdılması missiyasına xidmət etmişdir. Dahi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Heydər Əliyevin yubileyi keçirən Təşkilat Komitəsinin 1 avqust 1994-cü il tarixli yığıncağındakı böyük əks-səda doğurmuş nitqində səslənən aşağıdakı mülahizələr də Azərbaycanın, xalqımızın tanıdılması qayğılarını və milli-mənəvi özünüdərk proseslərini əhatə edir: "Bu yubileyi keçirərkən biz xalqımızın özünü tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin... tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə neçə töhfələr verdiyini dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsildə milli iftixar, vətənpərvərlik hisslərini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir".

Deməli, ədəbiyyat vasitəsilə milli-mənəvi özünüdərk prinsiplərinin daha da dərinləşdirilməsi, azərbaycançılıq məfkurəsinin mənimsədilməsi Heydər Əliyevin ədəbiyyat siyasətinin əsas prinsiplərindəndir. Bundan başqa, müxtəlif bəhanələrlə Azərbaycan xalqına mənsub olmasına şübhə ilə yanaşılan, ətrafında yersiz və haqsız mübahisələr açılan ədəbiyyat xadimlərinin yubileylərinin keçirilməsi həm də həmin mübahisəli məqamların, haqsız iddiaların aradan qaldırılmasına, Azərbaycan gerçəkliyinin daha dərindən əsaslandırılıb təsdiq olunmasına hesablanmışdır. Nizami Gəncəvinin 840, İmadəddin Nəsiminin 600, Məhəmməd Füzulinin 500 illik, "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyləri prosesində aparılan məqsədyönlü siyasi-ideoloji və elmi-ədəbi işin sayəsində həmin sənətkarların və ədəbi abidələrin Azərbaycan xalqına məxsusluğu nəinki möhkəm surətdə əsaslandırılmış, hətta bütün dünyaya bəyan edilmişdir. Nizami Gəncəvinin 840 illik yubileyinin keçmiş Sovetlər İttifaqı miqyasında, İmadəddin Nəsimi və Dədə Qorqud təntənələrinin UNESCO səviyyəsində, Məhəmməd Füzuli tədbirlərinin türk dünyası masştabında geniş şəkildə keçirilməsi adları qeyd olunan dahi sənətkarların və ədəbi abidənin dünya çapında tanıdılmasından başqa, həm də Azərbaycana məxsusluğunun qəti şəkildə təsdiq olunması demək idi. Bütün bunlar isə Heydər Əliyevin ədəbiyyat siyasətində yazıçı və şairlər, ədəbi əsərlər vasitəsilə Azərbaycanın mənafelərinin qorunması, müdafiə edilməsi kimi məsələlərin mühüm faktor olunduğunu nəzərə çarpdırır.

Ümummilli Lider Heydər Əliyevin ədəbiyyat siyasətində tarixilik prinsipinin də özünəməxsus yeri vardır. Böyük dövlət xadimi Heydər Əliyev bu fikirdə idi ki, "Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də... respublikamıza maraq göstərən adamlara tanıtmaq lazımdır". Heydər Əliyev Azərbaycan xalqına özünün soykökünü, milli-tarixi keçmişini dərindən və əsaslı şəkildə dərk etdirmək, mənimsətmək, xalqımızda milli qürur hisslərini daha da yüksəltmək üçün tarixi mövzularda bədii əsərlərin yazılmasına meydan verilməsini, belə əsərlərin geniş təbliğ edilməsini zəruri saymışdır.

Məlum olduğu kimi, aparılan dövlət siyasəti görkəmli Azərbaycan yazıçıları Anarın, Elçinin, İsa Muğannanın, Əzizə Cəfərzadənin, Hüseyn İbrahimovun, Fərman Kərimzadənin, Əlisa Nicatın və başqalarının tarixi mövzularda yazdıqları bədii əsərlər ölkəmizdə milli-tarixi özünüdərk proseslərinin dərinləşməsində doğru istiqamətləndirilməsinə xidmət etmişdir. Həmin dövrdə tarixi mövzularda yazılmış bədii əsərlərin əsasında filmlərin çəkilməsi, teatr tamaşalarının hazırlanması, bu əsərlərdən bəzilərinin rus dilinə tərcümə olunması, Türkiyədə Azərbaycan ədəbiyyatının nəşri prosesinin miqyasının genişlənməsi təmin edilmişdir. Beləliklə, Azərbaycan məmləkəti təkcə müasir inkişaf səviyyəsi ilə deyil, həm də zəngin tarixi ənənələri ilə dünyada tanıdılmışdır.

Heydər Əliyevə görə, tarixi mövzuda yüksək bədii səviyyədə əsər yazmaq yazıçıların Vətən və xalq qarşısındakı ən məsul vəzifələrindəndir. Belə əsərlərdə tarixiliklə bədiiliyin vəhdət daşımalı olduğunu da görkəmli dövlət xadimi diqqət mərkəzinə çəkmişdir: "Tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, açıq deyək ki, mürəkkəb mövzulardır. Belə mövzuların öhdəsindən yalnız yüksək istedadlı, dərin bilikli sənətkarlar gələ bilərlər".

Heydər Əliyevin ədəbiyyat siyasətində müasirlik meyarının özünəməxsus rolu və yeri vardır. Böyük siyasətçinin nəzərində müasirlik genişmiqyaslı bir kateqoriya kimi həm çağdaş həyatın ədəbiyyatda əks etdirilməsi, həm də müasir düşüncənin, yeni təfəkkürün ədəbiyyata gətirilməsi vəzifələrini əhatə edir. Ona görə də Heydər Əliyev həmişə elmdə və ədəbiyyatda öz dövrünü bütün dolğunluğu ilə göstərməyin, ictimai inkişafın dialektikasını bədii formada canlandırmağın, cəmiyyətin ən mühüm meyillərini və qanunauyğunluqlarını açmağın necə məsul vəzifə olduğunu "hər bir sənətkarın dərk etməsi çox böyük vəzifədir" qənaətində olmuşdur. Onun fikrincə, müasir həyatdan söz açan əsl sənətkar ötəri, keçəri meyilləri deyil, "ictimai inkişafın müqəddəratını müəyyən edən prosesləri və hadisələri ilk növbədə təsvir etməlidir". Heydər Əliyev haqlı olaraq belə hesab edirdi ki, "bizim zəmanəmiz və müasirlərimiz haqqında gözəl əsərlər yaratmaq Azərbaycan yazıçılarının əsas qayğısı olmalıdır".

Həm keçmiş sovet hakimiyyəti illərində, həm də müstəqillik dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan yazıçılarının qurultaylarındakı dərin məzmunlu məruzələri müasir ədəbiyyatın, yaxud ədəbiyyatda müasirlik məsələsinin bədii əksinin proqramına çevrilmişdir. Onun müasiri olduğu sənətkarların yubiley mərasimlərindəki dərin məzmunlu çıxışları müasir həyat və çağdaş ədəbiyyat münasibətlərinin əsas ana xətləri ilə açılmasına aydınlıq gətirir. Beləliklə, cəmiyyətdə və ədəbiyyatda müasirlik anlayışının Heydər Əliyev konsepsiyası formalaşmışdır. Fikrimizcə, XX əsrin altmışıncı illərindən sonra yaranan müasir Azərbaycan ədəbiyyatı ən yaxşı nailiyyətlərini həmin müdrik konsepsiyanın işığında qazana bilmişdir.

Azərbaycan Yazıçılar Birliyinin və onun mətbu orqanlarının qorunub saxlanılması da görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olan mühüm bir xidmətdir. "Ədəbiyyat qəzeti"nin, "Azərbaycan", "Qobustan", "Ulduz" və "Literaturnıy Azerbaydjan" jurnallarının nəşrinin dövlət tərəfindən maliyyələşdirilməsi Heydər Əliyevin çətin keçid dövrü proseslərində Yazıçılar Birliyinin və milli ədəbiyyatın inkişafına göstərdiyi böyük qayğının əməli təzahürüdür.

"Qobustan" jurnalının dövrün ideoloji təxribatlarından xilas edilməsində Heydər Əliyevin mühüm rolu olmuşdur. Görkəmli dövlət xadimi sonralar, 1997-ci ildə "Qobustan" jurnalı haqqında aşağıdakı mətləbləri ictimaiyyətə çatdırmışdır: "Mən Qobustan jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər cürbəcür hərəkətlər oldu. Mənim xatirəmdədir, biri gəlirdi ki, nə bilim millətçilik ideyaları yayır, o biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır. …Mən də görürdüm, baxırdım bu "Qobustan" jurnalına bunların dedikləri şey yoxdur, lakin bizim üçün lazım olan şeylər çoxdur. Ona görə də "Qobustan" jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm ki, "Qobustan" jurnalı o vaxt çox böyük işlər gördü".

Azərbaycan yazıçılarının ölkədən kənarda tanıdılması vasitəsilə Azərbaycanın tanıdılması və təbliğ edilməsi sahəsində ən uzaqgörən addımlardan biri də Ulu Öndərin onlara keçmiş SSRİ-də ən yüksək fəxri ad hesab edilən Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsinə nail olması ilə əlaqədardır. Etiraf etmək lazımdır ki, böyük istedadları və xidmətləri ilə birlikdə Xalq yazıçıları Mirzə İbrahimova və Süleyman Rəhimova, Xalq şairləri Rəsul Rzaya və Süleyman Rüstəmə Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi məhz respublika rəhbərinin nüfuzu sayəsində mümkün olmuşdur. Hətta bu məsələdə Heydər Əliyev siyasi büronun üzvləri səviyyəsində baş vermiş müqavimətlərlə də üzləşmiş, lakin bütün maneələri dəf etməyi bacarmışdır.

Müstəqillik epoxasının müasir mərhələsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əsaslandığı azərbaycançılıq siyasətinin ideoloji özülü görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat və mədəniyyət siyasətindən yoğrulmuşdur. Prezident İlham Əliyev bu əbədiyaşar təlimi yeni epoxanın prinsiplərinə uyğun olaraq müasir dövrün tələblərindən doğan müddəalarla daha da zənginləşdirərək, müstəqillik dövrünün ədəbiyyat siyasətini müəyyən etmişdir. Beləliklə, yeni tarixi epoxada görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat siyasətinin formalaşmış ənənələri yaradıcı şəkildə davam etdirilmişdir. Ölkəmizdə hazırkı şəraitdə adlı-sanlı sənətkarların dövlət səviyyəsində yubileylərinin keçirilməsi, tanınmış yazıçılara fəxri adların, fərdi təqaüdlərin və yaradıcı gəncliyin istedadlı nümayəndələrinə Prezident mükafatlarının verilməsi də Ulu Öndər tərəfindən ədəbi prosesin stimullaşdırılması siyasətinin uğurlu davamından ibarətdir. Bundan başqa, uzun illik fasilədən sonra Azərbaycan Respublikası Dövlət Mükafatının bərpa edilməsi, ədəbiyyat və incəsənət xadimlərinin mükafatlandırılması ədəbiyyat siyasəti sahəsindəki varisliyin əməli ifadəsidir. Bütün bunlarla bərabər, cəmiyyətin inkişaf xüsusiyyətlərinə, ölkəmizin artan iqtisadi imkanlarına uyğun olaraq, ədəbiyyat siyasəti sahəsində bir sıra yeni tədbirlərin həyata keçirilməsi də yeni tarixi epoxanın reallıqlarıdır. Ədəbiyyat və incəsənət sahəsində Heydər Əliyev mükafatının müəyyən edilməsi və həyata keçirilməsi, hər şeydən əvvəl, Azərbaycan dövlətinin ədəbiyyat siyasətini müəyyən edən görkəmli dövlət xadiminin xatirəsinə böyük ehtiramın ifadəsidir. Heydər Əliyev mükafatlarının təsis olunması həm də ədəbiyyat və incəsənətin Ulu Öndərin ümummilli ideallarına layiq şəkildə inkişaf etdirilməsi ənənəsinin yaşadılması deməkdir. Eyni zamanda son vaxtlarda "Qızıl çinar", "Buta" kimi yüksəksəviyyəli mükafatların meydana çıxması, Heydər Əliyev Fondunun mükafatları və təqaüdlərinin yaradılması mövcud siyasətin işığında formalaşan yeni ənənələrdir.

Ədəbiyyat tarixində böyük ədəbi məktəblər yaratmış görkəmli sənətkarların adlarına bütöv bir ilin həsr edilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin ədəbiyyat siyasətinə daxil etdiyi mühüm yenilikdir. Azərbaycanda böyük uğurla keçmiş "İmadəddin Nəsimi ili" (2019) və "Nizami Gəncəvi ili" (2021) bu qüdrətli sənətkarların həm müstəqil Azərbaycan Respublikasının yeni nəsillərinə yenidən təqdim olunması və həm də dünyada tanıdılması üçün bir il ərzində geniş siyasi və elmi-ədəbi iş aparılmasına imkanlar yaratmışdır. Dünyanın müxtəlif ölkələrində görkəmli ədəbiyyat və incəsənət xadimlərinin heykəllərinin ucaldılması, muzeylərinin yaradılması da Prezident İlham Əliyevin azərbaycançılıq uğrunda apardığı mübarizənin ana xətlərindən biridir.

Bütün bunlar ölkəmizin Prezidenti İlham Əliyevin ədəbiyyat və mədəniyyət işini müstəqillik dövrünün yüksək tələblərinə uyğun şəkildə inkişaf etdirilməsi tədbirlərini yeni səviyyəyə qaldırdığını qabarıq şəkildə nümayiş etdirir.

*Beləliklə, möhtərəm Prezident İlham Əliyev yeni tarixi epoxanın ədəbiyyat siyasətini formalaşdırır və ardıcıl olaraq inkişaf etdirir. Müstəqil Azərbaycanda uğurla həyata keçirilən ədəbiyyat siyasəti yeni ədəbiyyat axtarışlarının və çağdaş ədəbi nəslin meydana çıxması ilə nəticələnir. Müasir dövrün ədəbiyyat siyasəti azərbaycançılıq məfkurəsinin daha da zənginləşdirilməsinə uğurla xidmət edir.*

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik***

# Bakıda Ali Məhkəmənin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib

**Fevralın 13-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş "Ali Məhkəmələrin ədalət mühakiməsində rolu: müsbət təcrübələr və müasir çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət rəsmiləri ilə yanaşı, bir sıra xarici ölkələrin ali məhkəmə sədrlərindən ibarət nümayəndə heyətləri və digər şəxslər iştirak ediblər.

Əvvəlcə Ali Məhkəmənin sədri Ramiz Rzayev konfrans iştirakçılarını salamlayıb, ölkəmizə təşrif buyurduqları üçün qonaqlara və həmkarlarına minnətdarlığını bildirib.

Sonra Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov dövlətimizin başçısı İlham Əliyevin beynəlxalq konfrans iştirakçılarına təbrik məktubunu oxuyub.

Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq konfransın iştirakçılarına müraciətini parlament sədrinin birinci müavini Əli Hüseynli oxuyub.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri xanım Siofra O'Lirinin konfrans iştirakçılarına videomüraciəti təqdim edilib.

Konfransda Ali Məhkəmənin 100 illiyinə həsr olunmuş film nümayiş etdirilib.

Ali Məhkəmənin sədri Ramiz Rzayev "Azərbaycan Respublikası Ali Məhkəməsinin keçdiyi tarixi inkişaf yolu" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, Azərbaycan Ali Məhkəməsinin 100 illik yubileyi çox əlamətdar bir ilə təsadüf edir. Bu il mayın 10-da xalqımız müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd etməyə hazırlaşır. Müstəqil Azərbaycanda məhkəmə sisteminin inkişafı Ümummilli Liderin fəaliyyəti ilə sıx bağlıdır.

Ali Məhkəmənin yaradılmasının tarixi haqqında danışan Ramiz Rzayev bildirib ki, Azərbaycan dövləti müstəqilliyinin bərpasından sonrakı dövrdə Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti ilə məhkəmə-hüquq sistemində mərhələli şəkildə islahatlar aparılıb. Respublikamız ikinci dəfə 1991-ci ildə müstəqillik əldə edənə kimi məhkəmə quruluşu dəfələrlə dəyişilsə də, Azərbaycan SSR Ali Məhkəməsi ölkənin Ali Məhkəmə orqanı kimi mövcud olub. Yetmiş il davam edən sovet dövrü ərzində Ali Məhkəmə dövrün şərtləri çərçivəsində ölkəmizdə məhkəmə fəaliyyətinin və hüququn inkişafına yönəlmiş fəaliyyət göstərib.

Ramiz Rzayev vurğulayıb ki, müstəqil Azərbaycan Respublikası Ali Məhkəməsinin hüquqi statusu, məhkəmə sistemində yeri və rolu 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən olunub. Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsində Azərbaycan Respublikası Ali Məhkəməsinin ali məhkəmə orqanı kimi təsbit olunması onun yüksək hüquqi statusundan irəli gəlir.

"Prezident İlham Əliyevin 2019-cu il aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanını isə biz ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanması, bu sahədə yeni yol xəritəsi kimi qəbul edirik. İslahatların yeni mərhələsinin hədəfləri isə belə müəyyənləşdirilib - müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciətetmə imkanları daha da genişləndirilməli, onların fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının səmərəliliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir", - deyə Ali Məhkəmənin sədri qeyd edib.

Diqqətə çatdırıb ki, məhkəmə praktikasının vahidliyinin və ardıcıllığının təmin edilməsinin hər bir ölkənin hüquq sistemi üçün böyük əhəmiyyəti vardır. Vahid məhkəmə təcrübəsinin mövcudluğu məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmalarının sabitliyinin və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq olunmasının təminatı kimi çıxış edir. Qanunun eyni cür tətbiqi hüququn ümumiliyini, qanun qarşısında bərabərliyi və hüquqi müəyyənliyi təmin edir. Hüquqi dövlətdə bu prinsiplərin hakim olması şəxslərin ədalət mühakiməsinə və məhkəmələrə olan inamını artırır, onlara öz hərəkətlərinin hüquqi nəticələrini öncədən görmə imkanı verir. Bundan başqa, vahid məhkəmə təcrübəsinin mövcudluğu oxşar məhkəmə işlərinin həllinin müəyyənləşməsini təmin etməklə mübahisələrin məhkəmədən kənar həllinə kömək edir. Bununla həm də son nəticədə ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılmasına töhfə verilmiş olur. Odur ki, nəinki hüquq normaları birmənalı və aydın olmalıdır, həm də xüsusilə məhkəmə təcrübəsində vahid qaydada tətbiq edilməlidir. Yəni vətəndaşa hüquq tətbiq edənin hərəkətlərinin müəyyənləşəcəyinə dair əminlik verilməlidir.

Konfransda Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, baş prokuror Kamran Əliyev, insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva çıxış edərək Ali Məhkəmənin keçdiyi tarixi inkişaf yolundan, məhkəmə-hüquq sahəsində əldə olunan nailiyyətlərdən danışıblar.

Sonra konfrans "Vahid məhkəmə təcrübəsinin formalaşdırılmasında ali məhkəmənin rolu" mövzusunda panel iclası ilə işini davam etdirib.

Ali Məhkəmə sədrinin müavini Çingiz Əsgərovun moderatorluğu ilə keçən panel iclasında ölkəmizdə vahid məhkəmə təcrübəsinin formalaşması istiqamətində görülən tədbirlərdən danışılıb. Eyni zamanda bu sahədə ötən müddət ərzində Ali Məhkəmənin Plenumu tərəfindən bir sıra vacib qərarların qəbul edildiyi vurğulanıb.

İclasda Belarus Respublikasının Ali Məhkəməsinin sədri Valentin Sukalo, Ruminiya Ali Məhkəməsinin sədri Korina Alina-Korbu, Qazaxıstan Respublikasının Ali Məhkəməsinin sədri Aslambek Merqaliyev, Çex Respublikasının Ali Məhkəməsinin sədri Petr Angialossi, Qırğız Respublikasının Ali Məhkəməsinin sədri Zamirbek Bazarbekov, Qətər Dövlətinin Ali Məhkəməsi sədrinin müavini Ahmed Ali Al-Binali, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi Lətif Hüseynov və başqaları çıxış edərək vahid məhkəmə təcrübəsi ilə bağlı qənaətlərini bölüşüblər.

# Əmək pensiyalarının indeksləşdirilməsi 1 milyon 100 mindən çox vətəndaşa şamil olunur

## Artım yanvardan hesablanacaq

Fevralın 10-da Prezident İlham Əliyev "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, 2023-cü il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının, eləcə də pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsi həyata keçirilir. Nəticədə bütün növ əmək pensiyaları cari ildən etibarən 14,7 faiz, pensiya kapitalı isə 13,9 faiz artırılır.



Bu bir daha sübut edir ki, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə aparılan sosial islahatların mühüm tərkib hissələrindən biridir. Prezident İlham Əliyevin tapşırığına əsasən, son beş ildə icra edilən 4 islahat paketi çərçivəsində digər sosial ödənişlər kimi, pensiyalarda da davamlı artımlara nail olunub.

### Əvvəlki illərdə indeksləşdirilməyən pensiyalar da artırılıb

Əmək pensiyalarının məbləğinin, eləcə də pensiya kapitalının artımı inflyasiyadan qorunmaq məqsədi daşıyır. 2023-cü ilin əvvəlindən indeksasiya əsasında pensiya artımı bütün pensiyaçılara şamil olunur. Hazırkı yeni indeksasiya artımı həm ümumi əsaslarla pensiya təyin olunmuş, həm də qulluq stajına görə əlavə alan pensiyaçılar daxil olmaqla 1,1 milyon pensiyaçını əhatə edir. Bu, bütün növ əmək pensiyalarının indeksləşdirilməsi deməkdir. Vahid indeksasiya mexanizminin tətbiqi ilə əvvəlki illərdə pensiyaları indeksləşdirilməyən təxminən 99 min vətəndaşımızın da pensiya məbləği bu ildən etibarən artacaq.

Yeni artımdan sonra pensiyaların orta aylıq məbləği 423 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 456 manata çatdırılıb. Bu, pensiyaçıların sosial təminatının yaxşılaşdırılmasına xidmət edir.

### Sosial siyasətin ana xətti

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qeyd edib ki, pensiyaların indeksləşdirilməsi "Əmək pensiyaları haqqında" qanuna əsasən aparılır: "İndeksasiyanın mahiyyəti ondan ibarətdir ki, bu zaman pensiya məbləği əvvəlki ildəki orta aylıq əməkhaqqının artım tempinə uyğunlaşdırılır. Yəni 2023-cü ildə pensiyalar indeksləşdirilən zaman ötən ilin orta aylıq əmək haqqındakı artım faizi nəzərə alınmaqla, bütün növ pensiyaların artırılması həyata keçirilir. Nəzərə almaq lazımdır ki, əmək pensiyalarının baza hissəsi ləğv olunduğuna görə, indeksləşdirmə zamanı pensiyaların məbləği əvvəlki ildəki artım faizinə tam olaraq uyğunlaşdırılır".

Deputat həmçinin bildirib ki, yanvar ayının artımı fevral ayının artımı ilə birlikdə bu ay pensiyaçılara ödəniləcək: "Sərəncamın fevral ayında imzalanmasına baxmayaraq, artım yanvar ayından hesablanacaq. İndeksasiya zamanı bu il "Əmək pensiyaları haqqında" qanuna edilən dəyişikliklərə əsasən, pensiyalara əlavə olunan yardımlar da nəzərə alınacaq".

Məlumat üçün qeyd edək ki, həmin yardımlar aylıq 16,70 manat olmaqla illik 200 manat müəyyənləşdirilib.

Əmək pensiyaçıları artımı hesablamaq üçün sadə formuldan istifadə edə bilərlər. Beləliklə, indeksasiya nəticəsində artırılmış məbləği hesablamaq üçün 2022-ci il dekabrında alınmış pensiya məbləğinin üzərinə 16,7 manat, eləcə də alınan məbləğin 14,7 faizini əlavə etmək lazımdır.

V.Bayramovun sözlərinə görə, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin əsasını təşkil edir: "Ardıcıl həyata keçirilən sosial islahatlar bu istiqamətdə mühüm uğurların əldə olunmasına şərait yaradır. Sosial ödənişlərin, əmək pensiyalarının artırılması da vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılmasında ciddi rola malikdir. Bu baxımdan Prezidentin müvafiq sahə ilə bağlı imzaladığı fərman və sərəncamlar mühüm əhəmiyyət kəsb edir".

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*

# Fransada hökumət əleyhinə aksiyalar səngimir

## Ölkə daxilində hakimiyyətin nüfuzu sürətlə düşür

Fransada hökumətə qarşı etiraz aksiyaları davam edir. Bu barədə Fransa Vətənpərvərlər Partiyasının lideri və Avropa Parlamentinin keçmiş deputatı Florian Filippoya istinadən TASS Agentliyi xəbər yayıb.

Məlumatda bildirilir ki, ən böyük aksiya Parisdə baş tutub. Ümumilikdə Fransada Emmanuel Makron hökumətinin siyasətinə qarşı 25 aksiya keçirilib.

Təkcə Parisdə keçirilən "Sülh marşı"nda 10 min insan iştirak edib. Etiraz nümayişlərinin keçirildiyi Fransa şəhərləri arasında Ajacco (Korsika), Dijon, Kann, Marsel və Tulon da var.

Fevralın 12-də isə Fransanın paytaxtında hökumətin həyata keçirdiyi pensiya islahatına qarşı keçirilən dördüncü nümayiş iğtişaşlara çevrilib. Bu barədə yerli "Le Figaro" qəzeti yazıb.

Polislə toqquşma paytaxtın 11-ci rayonunda, Rue de Charonne küçəsində baş verib. Nümayişçilərlə polis arasında yenidən qarşıdurma olub. Etirazçılar mağazaların vitrinlərini sındırmağa, fişənglərdən istifadə etməyə və yanğınlar törətməyə başlayıblar. Polis etirazçıları dağıtmaq üçün növbəti dəfə gözyaşardıcı qazdan və dəyənəklərdən istifadə edib. Bildirilir ki, aksiya iştirakçıları istehkamlar qurmağa cəhd ediblər.

Qarşıdurma zamanı xəsarət alanlar barədə məlumat verilmir.

Etiraz hərəkatı Respublika meydanında başlayıb və Millət meydanında başa çatıb.



Nümayiş iştirakçıları "60 yaşında təqaüdə çıxmaq üçün mübarizə aparacağıq!" şüarı səsləndirib, "Makron, özün təqaüdə çıx" plakatları daşıyıblar.

Yerli BFM TV telekanalı ölkənin Daxili İşlər Nazirliyinin məlumatlarına istinadən xəbər verib ki, şənbə günü Fransanın böyük şəhərlərində hökumət əleyhinə keçirilən nümayişlərdə 963 min insan iştirak edib. Ümumi Əmək Konfederasiyasının (CGT) məlumatına görə, nümayişə 2,5 milyon insan çıxıb.

Telekanalın xəbərinə əsasən, şənbə günü bütün ölkə ərazisində, o cümlədən Marsel, Lion, Bordo, Nant kimi böyük şəhərlərdə pensiya islahatına qarşı 200-dən çox nümayiş keçirilib.

Fransada növbəti beşinci nümayiş fevralın 16-da planlaşdırılıb.



BFM TV telekanalının verdiyi xəbərə görə, həmkarlar ittifaqı təşkilatları martın 7-də ümummilli tətil elan edib.

"İşçilərin Gücü" (FO) Həmkarlar İttifaqının rəhbəri Frederik Suyyo bildirib ki, həmkarlar ittifaqları bütün işçiləri, gəncləri və təqaüdçüləri martın 7-dən başlayaraq bütün sektorlarda Fransanı "bloklamağa" çağırır.

Əslində, Makron daxili siyasətdə məğlub olub, onun həyata keçirdiyi xarici siyasətdə Fransa üçün yaxşı heç nə baş vermir. Fransa NATO üzvü kimi Ukraynanı mütəmadi olaraq silahla təmin edir, amma orada nəzərəçarpacaq irəliləyiş yoxdur. Makron özünü sülhpərvər kimi təqdim etməyə çalışsa da, bu heç bir nəticə vermir. Azərbaycanın əleyhinə ritorikası, işğalçı Ermənistanı, erməni separatçıları və terrorçularını dəstəkləməsi də buna bariz sübutdur.

Fransa siyasətçiləri prezidentə qarşı hücumlarını gücləndirib, ona bütün günahlarını xatırladırlar. Yerli siyasətçilər Afrikada "anti-fransız hisslərinin" inkişaf etdiyini bildirib, Makronun ünvanına məzəmmətlər yağdırır və faktiki olaraq onu ölkənin nüfuzunu aşağı salmaqda ittiham edirlər. "O, idarə etdiyi xalq da daxil olmaqla, hamıya nifrət edir". Bunu prezidentliyə namizəd Marin Le Pen deyir.

"Yenilməyən Fransa" solçu birliyinin rəhbəri Jan-Lük Melanşon isə bildirib ki, heç kim Makronun islahatlarını istəmir və vaxt keçdikcə müxalifət daha da güclənir.

Həqiqətən, ölkədə aparılan sorğuların nəticələrinə görə, respondentlərin 72 faizi islahatların əleyhinədir. Aydındır ki, narazıların faizi nə qədər çox olarsa, Fransa prezidentinin reytinqi də bir o qədər aşağı düşər. Parislə artıq beynəlxalq aləmdə hesablaşmırlar. Ölkə daxilində isə hakimiyyətin nüfuzu sürətlə düşür.

*Rizvan HİLALOĞLU, "Azərbaycan"*

# Jurnalistlərin əmək müqaviləsi ilə çalışdıqları dövr iş stajı hesab olunur

Ötən ilin oktyabr ayından media subyektləri, jurnalistlər Media Reyestri İnformasiya Sisteminə reyestr.media.gov.az portalı üzərindən ASAN Login vasitəsilə daxil olaraq müraciət edirlər. Ancaq media reyestrinə müraciət zamanı bir çox jurnalist iş stajının tam olaraq hesablanmaması problemi ilə qarşılaşıblar.

Əgər elektron sistemdə staj 3 ildən az görünürsə, iş ilinə baxmaq üçün əmək kitabçasının notarial təsdiqi istənilir. Daha artıq staj görünəndə kitabçanın notarial təsdiqi tələb olunmur. Ancaq əgər elektron sistemdə əvvəlki illərin iş stajı görünmürsə, bu zaman da əmək kitabçasının notarial təsdiqi tələb olunur.

* Media subyektlərinin məhsullarının təqdim edilməsi ƏDV-dən azad edilir

* Media reyestrinə etiraz edənlər: onlar nə istəyirlər?

* Mənbəyini qanun yol verməyən hallarda açıqlayan jurnalist və media subyekti cərimələnəcək

Bütün bu məsələlərlə bağlı jurnalistlərin sosial şəbəkələrdə də müraciətləri yayımlanır. Eyni zamanda gələcəkdə pensiya yaşı çatan zaman da müəyyən problemlərin ortaya çıxacağı narahatlığını yaradır.

Məsələ ilə bağlı Dövlət Sosial Müdafiə Fondundan APA-nın sorğusuna cavab olaraq bildirilib ki, jurnalistlərin iş stajı, digər sahələrdə çalışan vətəndaşlarımız kimi, əmək müqaviləsi ilə çalışdıqları dövr hesab olunur: "Bu staj haqqında məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2014-cü ildən işə salınan "Əmək və Məşğulluq" altsistemində əksini tapır. 2014-cü ildən öncəki iş stajı haqqında məlumatlar isə hər bir media işçisində mövcud olan əmək kitabçasında əksini tapır.

Media reyestri ilə bağlı tələblərdə məhz bu amil əsas götürülür. Nazirlik olaraq Medianın İnkişafı Agentliyi ilə fəal əməkdaşlıq edilir, müvafiq elektron informasiya sistemlərinin agentliyin informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyası təmin olunub.

Qaldı ki, jurnalistlərin gələcəkdə pensiya hüququ məsələsinə, bu hüquq sığorta stajına uyğun olaraq təmin edilir. Belə ki, 2006-cı ildən ölkəmizdə tətbiq edilən fərdi uçot sistemində sosial sığorta ödəmələrinin həyata keçirildiyi dövrlər (sığorta stajı) və toplanmış pensiya kapitalı əksini tapır. Pensiya kapitalı təkcə əmək müqaviləsi ilə deyil, VÖEN və ya mülki müqavilə ilə çalışan hər kəslə bağlı ödənilən sığorta haqları hesabına formalaşır".

# Ermənistanda gənclər kütləvi şəkildə ordudan yayınırlar

Son günlərdə Ermənistanda orduya bağlı şəxslərin vəzifədən uzaqlaşdırlması, bir çoxlarına qarşı ittiham irəli sürülməklə həbsinə hazırlıq görülməsi ölkədə yeni daxili qarşıdurmaya gətirib çıxarmaqdadır. Ermənistanın "Qraparak" nəşri yazır ki, baş verənlər hakimiyyət və müxalifət arasında, eləcə də iqtidarın öz daxilində çəkişmələrə səbəb olub.

Son olaraq Ermənistanın keçmiş müdafiə naziri, parlamentdəki "Ermənistan" fraksiyasının başçısı Seyran Ohanyana qarşı ittiham irəli sürülüb. Ermənistan Baş Prokurorluğunun yaydığı məlumatda bildirilib ki, 2008-2016-cı illərdə müdafiə naziri olan S.Ohanyan külli miqdarda dövlət əmlakını talamaqda, vəzifə səlahiyyətlərindən sui-istifadədə, israfçılıq yolu ilə xüsusilə külli miqdarda əmlak mənimsəməkdə ittiham olunur.

Qeyd edək ki, fevralın 8-də Ermənistan parlamenti Seyran Ohanyana qarşı cinayət işinin başlanmasına razılıq verib. Baş verənlər sabiq hərbçilər arasında da ciddi təşvişə yol açıb. Belə hesab edilir ki, ordudan əsasən Rusiyaya, eləcə də keçmiş hərbi xuntaya bağlı zabitlər sıxışdırılıb çıxarılır, daha sonra isə həbsə atılır.

Erməni hərbçiləri hesab edirlər ki, bu proseslərdə Ermənistan ordusu itirəcək. İddia olunur ki, hakimiyyətə bağlı olan şəxslər hərbi qurumlarda yüksək vəzifəyə gətiriləcəklər, nəticədə ordu daha da zəifləyəcək. Hesab edilir ki, Ermənistanın siyasi hakimiyyəti özünü ayaqda tutmaq üçün davamlı olaraq generallardan "günah keçisi" kimi istifadə edir.

Bütün bunların fonunda Ermənistan ordusundakı özbaşınalıqların, əsgərlərin fiziki işgəncələrə məruz qalmasının, incidilməsinin dözülməz həddə çatdığı qeyd edilir. Elə bunun nəticəsidir ki, bir qrup valideyn İrəvanda Müdafiə Nazirliyinin qarşısında piket keçirib və əsgərləri döyüb öldürənlərin həbs olunmasını tələb ediblər. Qeyd olunur ki, yaranmış bu vəziyyət gənclərin hərbi xidmətdən yayınmalarına səbəb olur.



Eyni zamanda erməni mətbuatı yazır ki, gənclər ordudan yayınmağın yeni metodunu tapıblar. Belə ki, indi Ermənistan gəncləri cinsi azlıqlara mənsub olmaları barədə hərbi komissarlıqlara arayış təqdim edərək hərbi xidmətdən yayınır, sonra isə ölkəni tərk edirlər.

Ermənistan ordusu təkcə çağırışçıların sayının sürətlə azalmasına görə problem yaşamır, bu ölkənin silahlı qüvvələrinin maddi-texniki təchizatında da əvvəlki kimi böyük çətinliklər mövcuddur. Eyni zamanda orduda nizam-intizam pozuntularının, fərariliyin, ölüm hallarının, digər bu kimi mənfi tendensiyaların miqyası durmadan genişlənməkdə davam edir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Tələblər haqlı, mövqe ədalətli, məram vətənpərvərlikdir

Artıq iki aydan çoxdur ki, Laçın-Xankəndi yolunda Azərbaycanın ekofəallarının, könüllü gənclərinin və qeyri-hökumət təşkilatları (QHT) nümayəndələrinin etiraz aksiyaları davam edir. Aksiya dinc şəkildə gecə-gündüz davam etdirilir.




Eyni zamanda aksiya iştirakçıları Rusiya sülhməramlılarına, Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Laçın-Xankəndi yolunda sərbəst hərəkəti üçün lazımi şərait yaradır. Belə ki, aksiyanın davam etdiyi iki ay ərzində Rusiya sülhməramlıları və BQXK-yə məxsus 1800-dən çox avtomobil Laçın-Xankəndi yolundan maneəsiz keçib.

Ermənistan mətbuatında yayılan və etirazçıların guya Xankəndi-Laçın yolunu bağladıqları, təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlərin yalan, növbəti dezinformasiya olduğunu azərbaycanlı aksiya iştirakçıları öz təmkinli davranışları, səsləndirdikləri şuarlarla hər kəsə göstərirlər. Aksiyanın ilk günlərində olduğu kimi, bu gün də Laçın-Xankəndi yolunda dayanmış ekofəallarımız, könüllü gənclərimiz, vətəndaş cəmiyyətimizin nümayəndələri hərəkətə maneə törətmədən üzərində üç dildə - Azərbaycan, rus və ingilis dillərində yazılmış plakatlar qaldırır, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Sərvətimiz bölünməz, heç bir kəsə verilməz!", "Təbiətin qanunsuz istismarına son!", "Ekoterrora son!", "Ekoloji cinayətə son!", "Mina terroruna son", "Ermənilər beynəlxalq konvensiyalara riayət etmirlər!" kimi şüarlar səsləndirirlər.

Qarlı, şaxtalı, tufanlı günlərdə Laçın-Xankəndi yolunun Şuşadan keçən hissəsində azərbaycanlı fəalların fasiləsiz keçirdikləri etiraz aksiyasının səbəbi Ermənistanın 2020-ci ildə 44 gün davam edən və qəhrəman Azərbaycan Ordusunun zəfəri ilə bitən Vətən müharibəsindən sonra da mənfur niyyətindən əl çəkməməsidir. Otuz ilə yaxın müddətdə işğal altında saxladığı Qarabağ və Şərqi Zəngəzurda dünyanı heyrətə salacaq qədər böyük vandalizm törədən, tarixi abidələrimizi və müasir tikililərimizi qarət etdikdən sonra da yandıran, uçurub dağıdan, həmin yerlərin təbiətinə misli görünməmiş zərbələr vuran, təbii sərvətlərini talayan, daşıyıb aparan Ermənistan müxtəlif yollarla öz işğalçı, təcavüzkar planlarını həyata keçirməyə çalışır.

Hər kəsin bildiyi həqiqətdir ki, ermənilər işğal dövründə torpaqlarımızda mina terroru həyata keçiriblər. Mənfur Ermənistan beynəlxalq cinayət törədərək torpaqlarımıza basdırdığı minaların dəqiq xəritələrini verməkdən də boyun qaçırır. Üstəlik, ermənilər Vətən müharibəsi başa çatdıqdan sonra da hərbi cinayətlərini davam etdirərək ərazilərimizi minalayıblar. Belə ki, müharibədəki məğlubiyyətindən və imzaladığı üçtərəfli Bəyanatdan sonra da Ermənistan ölkəmizin ərazilərində mina terrorunu davam etdirib. Azərbaycanın suveren ərazilərində 2021-ci ildə Ermənistanda istehsal olunmuş üç minə yaxın piyada əleyhinə minaların aşkarlanması bunun daha bir sübutudur. Nəticələr isə faciəlidir. Terrorçu ermənilərin Azərbaycan dövlətinin Qarabağ və Şərqi Zəngəzur ərazilərində basdırdıqları minalar Vətən müharibəsindən sonra 282 nəfər azərbaycanlının həyatına son qoyub.

Eyni zamanda, qeyd etdiyimiz kimi, ermənilər respublikamızın təbii sərvətlərini - qızıl, mis yataqlarını istismar edir və işğalçı ölkəyə daşıyırdılar. Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarına, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq ekofəallarımız, könüllü gənclərimiz və QHT təmsilçilərimiz Şuşa-Laçın yolunda aksiya keçirirlər və bunun təsiri də var.

Xatırladaq ki, aksiya başlamamış Rusiya sülhməramlılarının komandanı Andrey Volkov azərbaycanlı mütəxəssislərlə, ekofəallarla görüşüb qanunsuz istismar olunan yataqlarda monitorinq aparmaq istəyən mütəxəssislərə əraziyə baxış keçirmək üçün şərait yaradılacağına söz vermişdi. Ancaq sonradan müxtəlif bəhanələrlə dediklərinə əməl etmədi. Görünən isə o idi ki, Ermənistan Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarını və ərazilərimizdə mina terrorçuluğunu davam etdirməkdən əl çəkən deyildi. Belə olan halda azərbaycanlı vətənpərvərlər öz mövqelərini ortaya qoydular. Həm də olduqca ədalətli, dinc, hüquqi şəkildə. Ötən il dekabrın 12-dən başlayan və fasiləsiz olaraq, gecə də, gündüz də aparılan aksiyada azərbaycanlı ekofəallar, könüllü gənclər, QHT təmsilçiləri həm Ermənistana ibrət dərsi verirlər, həm də bütün dünyaya əsl vətəndaşlıq nümunəsi göstərirlər.

Ermənistan nəhayət, anlamalıdır ki, onun Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərində otuz ilə yaxın davam edən işğalçılığı başa çatıb. Ədalət bərpa olunub. Həmin torpaqlarda əsl sahibləri böyük çətinliklərlə, amma eyni zamanda da yüksək coşqu, sonsuz arzularla, ümidlərlə quruculuq işləri həyata keçirməkdədirlər. Azərbaycan dövləti, Azərbaycan xalqı Qarabağa və Şərqi Zəngəzura ermənilərin vurduqları yaralara məlhəm olur, törətdikləri ekoloji fəlakəti aradan qaldırmağa çalışırlar. Bu isə yalnız Azərbaycanın və qonşu ölkələrin deyil, bütövlükdə Cənubi Qafqazın ekoloji təmizliyinə müsbət təsir göstərəcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Aksiya ərazisindən keçərək Laçın istiqamətinə gedən BQXK-yə məxsus avtomobillər geri qayıdıb



Laçın-Xankəndi yolunda təşkil olunan dinc aksiyanın iştirakçıları ərazidən humanitar məqsədlər üçün istifadəyə növbəti dəfə şərait yaradıblar.

AZƏRTAC xəbər verir ki, dünən səhər saatlarında Xankəndidən Laçın istiqamətinə hərəkət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus 6 avtomobil bir müddətdən sonra əks tərəfə geri qayıdıb.

Bu, bir daha onu göstərir ki, aksiyanın təşkil olunduğu ərazi humanitar məqsədli maşınların keçidi üçün tam açıqdır. Qarabağda ekoloji istismara qarşı ötən il dekabr ayının 12-dən başlayan aksiya 65 gündür davam edir.



## Sülhməramlıların növbəti avtomobil karvanının aksiya ərazisindən keçidi təmin edilib

Azərbaycanlı ekofəalların Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyası 65 gündür davam edir.

Ərazi humanitar məqsədlər üçün açıqdır, sərbəst hərəkətə heç bir maneə yoxdur. Laçın-Xankəndi yolunda hər iki istiqamətə Rusiya sülhməramlılarına və Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus avtomobillər maneəsiz hərəkət edir.

AZƏRTAC xəbər verir ki, sülhməramlılara məxsus 1 minik, 14 təminat avtomobili Laçından Xankəndi istiqamətinə maneəsiz keçib.

Bu, bir daha onu göstərir ki, heç də siyasi xarakter daşımayan aksiya humanitar məqsədlərə xidmət edir.





Qeyd edək ki, Ermənistan mətbuatında yayılan və etirazçıların guya Laçın-Xankəndi yolunu bağladıqları, təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

## Beynəlxalq Qızıl Xaç Komitəsinin qərəzli mövqeyi

### Qurum azərbaycanlılara və ermənilərə eyni standartlardan yanaşmır

Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı fəaliyyəti haqlı olaraq bəzi suallar doğurur. Məsələn, bu qurum Birinci Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımızın axtarışları ilə bağlı indiyə kimi heç bir iş görməyib. Eyni zamanda 44 günlük Vətən müharibəsində BQXK-nin 200 erməni hərbçinin mühasirədən çıxarılmasına yardım etməsinə dair məlumatlar var.





Həmçinin BQXK-nin Xankəndidə, yəni Azərbaycan ərazisində yerləşən ofisinin Ermənistandakı mərkəzə tabe olmaqla onlardan göstərişlər alması da anlaşılan deyil. Görünən odur ki, BQXK-nin Qarabağın otuz il ərzində işğalda olduğu dövrdə heç bir tədbir görməyən digər beynəlxalq qurumlardan fərqi yoxdur. Elə bunun nəticəsidir ki, cəmiyyətdə zaman-zaman BQXK-nin fəaliyyəti ilə bağlı narazılıqlar müşahidə olunur.

### BQXK atdığı addımlarda birtərəfliliyə yol verib

Milli Məclisin deputatı Sahib Alıyev qəzetimizə açıqlamasında deyib ki, Beynəlxalq Qızıl Xaç Komitəsi regionda fəaliyyətə başladığı gündən hərəkətlərində, atdığı addımlarda həmişə birtərəfliliyə yol verib. Deputat qeyd edib ki, BQXK humanitar missiya yerinə yetirən qurum olaraq həm azərbaycanlılara, həm də haylara eyni standartlardan yanaşmalıdır: "Təəssüf ki, biz həmişə fərqli yanaşma sərgiləndiyini görmüşük. Komitənin daha çox ermənilərin maraqlarına uyğun çıxış etdiyinin şahidiyik. Birinci Qarabağ müharibəsində də, Vətən müharibəsində də belə idi. İndi də oxşar siyasətin yeridildiyini görürük. Bunun səbəbini anlamaq üçün BQXK-ni təsis edən dövlətlər sırasında kimlərin olduğuna diqqət çəkmək bəs edir. Bu dövlətlər sırasında Fransa və ABŞ-nin olması bizə çox şey deyir".

Azərbaycan torpaqlarının işğal altında olduğu zaman ATƏT-in Minsk qrupuna həmsədrlik edən hər iki dövlətin özlərini necə aparmasına diqqət çəkən Sahib Alıyev vurğulayıb ki, onların sonrakı proseslərdə və hazırda necə siyasət yürütdükləri göz qabağındadır. Təbii ki, bu davranış təsisçiləri olduğu beynəlxalq komitənin yeritdiyi siyasətdə də istər-istəməz özünü göstərir. Ümumiyyətlə, BQXK-ni ilk dəfə kimin yaratdığına və bu ailənin bioqrafiyasına fikir versək, qurumun heç də nizamnaməsində yazıldığı yöndə fəaliyyət üçün nəzərdə tutulmadığı aydın olacaq.

Son zamanlar Beynəlxalq Qızıl Xaç Komitəsinin adının daha çox casus qalmaqallarında hallandığını deyən deputat əlavə edib ki, Qərb ölkələrinin xüsusi xidmət orqanları əməkdaşlarının həmin qurumun adı altında fəaliyyət göstərdikləri haqda çoxlu xəbərlərə rast gəlinir.

"Yeri gəlmişkən, BQXK-nin fəaliyyəti Ukraynada da ən yüksək səviyyədə kəskin şəkildə tənqid olunub. Ukrayna Prezidenti V.Zelenski ötən il BQXK-ni fəaliyyətsizlikdə, həmin qurumun mərkəzi qərargahında təmsil olunan ayrı-ayrı şəxslərin əmrlərinə uyğun, amma nizamnaməyə zidd hərəkətlərdə ittiham etmişdi", - deyə S.Alıyev qeyd edib.

### Ermənistana xüsusi münasibət təbii ki, suallar doğurur

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qeyd edib ki, Beynəlxalq Qızıl Xaç Komitəsi 1992-ci ildən etibarən, yəni Ermənistanın Azərbaycan torpaqlarını aktiv işğal etməyə başladığı dövrdən bu günə kimi regionda fəaliyyət göstərir. Onun sözlərinə görə, əksər hallarda BQXK-nin Ermənistanla Azərbaycana fərqli yanaşdığı aydın görünür. Ermənistanın işğalı zamanı minlərlə soydaşımız itkin düşüb, onların taleyindən bu günə qədər heç bir məlumat yoxdur. Məlumdur ki, erməni işğalçıları çox sayda azərbaycanlıları əsir götürüblər.

Deputat vurğulayıb ki, beynəlxalq komitə erməni itkin düşmüşlər və əsirlərlə daha intensiv, yaxından maraqlanıb: "Təbii ki, bu, özü də ayrı-seçkiliyin göstəricisidir. Nəzərə almaq lazımdır ki, BQXK öz mandatına uyğun olaraq neytral mövqe sərgiləməlidir, amma zaman-zaman biz bunun əksini müşahidə etmişik. Məsələn, indi Laçın-Xankəndi yolunda azərbaycanlı ekofəallar haqlı maraqlarımızın qorunması üçün mübarizə aparmaqdadırlar. BQXK Xankəndidə yaşayan ermənilərlə Ermənistan arasında intensiv əlaqələrin qurulmasında çox ciddi fəallıq nümayiş etdirir".

Elşad Mirbəşiroğlu deyib ki, eyni situasiya Azərbaycanla bağlı olsaydı, qurum bu cür canfəşanlıq etməyəcəkdi. Burada da erməni təəssübkeşliyi aşkar müşahidə olunur. Bunun başlıca səbəbi odur ki, əksər beynəlxalq təşkilatlar kimi, BQXK da erməni lobbi təşkilatları ilə sıx ünsiyyətdə olaraq fəaliyyət göstərir.

Deputat Avropa Parlamentinin Azərbaycana qarşı ardıcıl qərəzli qətnamələr qəbul etdiyini xatırladaraq bildirib ki, AP-nin erməni lobbiçiləri ilə sıx ünsiyyətdə olduğu, parlamet üzvlərinin davamlı olaraq nəyinsə müqabilində ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirdiyi heç kimə sirr deyil. Onun sözlərinə görə, BQXK-nin Azərbaycana və Ermənistana fərqli prizmalardan yanaşması, əksər hallarda işğalçı və təcavüzkar Ermənistana daha canıyanan münasibət sərgiləməsi ortaya ciddi suallar qoyur.

"Otuz il ərzində - Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı müddətdə, Azərbaycan xalqına qarşı terrorlar törədildiyi zaman regionda BQXK-nin daha fəal təşəbbüslərlə çıxış etməsi zərurəti mövcud idi. Amma bu olmadı. İndi isə ermənilərə dəstək istiqamətində komitənin kifayət qədər yüksək fəallığını görməkdəyik", - deyə E.Mirbəşiroğlu əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# İŞİMİZ, GÜZƏRANIMIZ

# İxracı artırmağın yolu təkcə istehsal deyil

## Təməli qoyulan yeni istilik-elektrik stansiyası Azərbaycanın enerji gücünə əlavə güc qatacaq

**Keçən ay ölkəmizdən qaz ixracı ötən ilin eyni dövrünə nisbətən 12 faiz artıb. Avropaya 1 milyard kubmetr, Türkiyəyə 0,9 milyard kubmetr, Gürcüstana isə 0,3 milyard kubmetr qaz ixrac olunub. Türkiyənin aldığı Azərbaycan qazının yarıdan çoxu TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) çatdırılıb. Bu barədə Energetika Nazirliyi məlumat verib.**



Mavi yanacağın ixracının artdığı "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının bu yaxınlarda Bakıda keçirilmiş 9-cu toplantısında da vurğulanmışdır. Prezident İlham Əliyev bu barədə demişdir: "Təbii qaz ixracı artır - 2021-ci ildə təxminən 19 milyard kubmetr, ötən il isə 22,6 milyard kubmetr olmuşdur. Biz bu il onun 24,5 milyard kubmetr olmasını gözləyirik. Bu, o deməkdir ki, Avropa Komissiyası ilə Anlaşma Memorandumu uğurla icra olunur. Biz nəinki hasilatı, o cümlədən ixracı artırırıq və həmçinin onun coğrafiyasını genişləndiririk. Əminəm ki, layihəyə qoşulmuş ölkələr bu gün bunun faydasını artıq görürlər və görəcəklər. Həmçinin digər bağlantılar və potensial interkonnektorlar vasitəsilə biz Avropada daha çox ölkələri bu layihəyə qoşa biləcəyik".

İxracın artırılması təbii ki, bu istiqamətdə səylə kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Dövlətimizin başçısı keçən ilin iyul ayında Avropa Komissiyası ilə imzalanmış anlaşma memorandumundan dərhal sonra Azərbaycandan daha çox qazın təchiz edilməsi məqsədilə əlavə imkanların yaradılması üçün fəal şəkildə işə başlandığını bildirmişdir. Belə ki, hazırda yeni yataqlardan bu il gözlədiyimiz hasilata, eləcə də mövcud "Şahdəniz" yatağında hasilatın artırılmasına əlavə olaraq ölkə daxilində həmçinin enerji səmərəliliyinə önəm verilir. İtkilərin azaldılması proqramı, o cümlədən elektrik enerjisinin və təbii qazın kombinasiyası əsasında daxili istehlak proqramı üzərində iş aparılır. Beləliklə, Azərbaycanda elektrik enerjisinin istehsalında istifadə olunan təbii qaza ixrac məqsədilə daha çox qənaət etmək mümkündür.

Yeri gəlmişkən qeyd edək ki, dünən ölkəmizdə təməli qoyulan ən böyük İstilik Elektrik Stansiyası fəaliyyətə başlayandan sonra xeyli qazın qənaət olunmasına imkan verəcək. Prezident İlham Əliyev "Gülüstan" sarayında keçirilən təməlqoyma mərasimindəki çıxışında bu barədə demişdir: "İndi isə Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin. Bu gün Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaqdır".

Hasilata gəldikdə isə, xatırladaq ki, Azərbaycanın 2,6 trilyon kubmetr təsdiq edilmiş qaz ehtiyatları məlumdur. Bundan çox da ola bilər. Çünki neft yataqlarında qazma işləri davam etdikcə, ilkin qiymətləndirmələrlə müqayisədə ehtiyatların həcminin daha çox olduğu ortaya çıxmışdır. Texnologiyalar inkişaf etdikcə hasilat imkanlarının artacağı da şübhəsizdir. Odur ki, 2,6 trilyon kubmetr qaz potensialının təsdiqlənmiş minimal həcmidir. Başqa sözlə, Azərbaycanın qaz sahəsi azı 100 il beynəlxalq bazarlara öz ehtiyatlarını tədarük etməyə qadirdir.

Bir sıra yeni yataqlardan mavi yanacaq gözləsək də, hazırda ixracın əsas bazası "Şahdəniz" yatağıdır. "Şahdəniz" layihəsinin əməliyyatçısı olan bp şirkətinin keçən ilə aid hesabatında bildirilir ki, yataqdan Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC-yə), Türkiyə (BOTAŞ-a) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə və Avropadakı alıcılara qaz çatdırılması davam edib. 2022-ci ildə "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə təqribən 25 milyard standart kubmetr qaz və 4 milyon tondan artıq (təqribən 36 milyon barel) kondensat hasil olunub. Mövcud "Şahdəniz" qurğularının qaz hasilatı gücü hazırda gündə təxminən 74 milyon (ildə 27 milyarddan artıq) standart kubmetrdir.

Avqust ayında "Şahdəniz Alfa" platformasında və Səngəçal terminalındakı "Şahdəniz-1" qurğularında planlaşdırılmış profilaktik işlər proqramı da məhz onların təhlükəsiz, etibarlı və ətraf mühitə ziyan vurmadan uzun müddət istismar qabiliyyətini davam etdirə bilməsinə yönəldilmişdir.

Keçən il "Şahdəniz-2" layihəsi çərçivəsində qərb-cənub cinahından hasilata başlanmışdır. Şərq-şimal cinahında bu ilə planlaşdırılan hasilatın başlanması üçün işlər qrafikə uyğun davam etmişdir.

Qeyd edək ki, "İstiqlal" və "Maersk Explorer" qurğuları "Şahdəniz-2"də ümumilikdə 21 quyu qazıb. Bunlara yatağın şimal cinahında beş, qərb cinahında dörd, şərq-cənub cinahında dörd, qərb-cənub cinahında beş və şərq-şimal cinahında üç quyu daxildir.

Bir sözlə, qaz ixracının artırılması üçün vacib olan bir sıra şərtlər sırasında hasilatın artırılmasının önəmli yer tutduğu diqqət mərkəzindədir. Vurğulayaq ki, hazırda Xəzərin Azərbaycan sektorunda bir sıra ümid verən yataqlarda iş gedir və yaxın gələcəkdə onlardan hasilata başlanacağı gözlənilir. Prezident İlham Əliyev bu barədə demişdir: "Perspektivli yataqlardan çıxarılacaq qazı həm daxili tələbatı ödəmək üçün, eyni zamanda ixrac üçün də nəzərdə tutmuşuq. Hələ ki bizim ixrac resurs bazamız "Şahdəniz" yatağıdır. Amma yaxın gələcəkdə "Abşeron", "Şəfəq", "Asiman", "Ümid-Babək" və "Azəri-Çıraq-Günəşli"nin dərin qaz adlandırılan yataqlarından qaz hasilatı gözlənilir. Yəni çox böyük resursdur və bütün sadaladığım layihələr üzrə fəal işlər gedir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan ilk yerdədir

Azərbaycan minimum və orta aylıq pensiya göstəricilərinin alıcılıq qabiliyyəti pariteti əsasında hesablanmış beynəlxalq dollar ifadəsində MDB ölkələri və Gürcüstan üzrə sıralamada ilk yeri tutmaqda davam edir.

Minimum və orta aylıq pensiyanın nominal məbləğlərinə görə isə həmin sıralamada ikinci yerdədir.

Son 5 ildə ölkəmizdə aparılan ardıcıl sosial islahatların tərkib hissəsi olaraq minimum pensiyanın 2,5 dəfə artırılaraq 280 manata, orta aylıq pensiyanın iki dəfə artaraq 423 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləğinin 456 manata çatmasına nail olunub.

# Azərbaycan sahibkarları Pakistanda keçiriləcək sərgiyə dəvət alıblar

**Azərbaycan sahibkarları fevralın 23-25-də Lahor şəhərində keçiriləcək 2-ci Mühəndislik və Səhiyyə Sərgisinə dəvət ediliblər.**




AZPROMO-dan AZƏRTAC-a bildirilib ki, builki sərgidə 170-dən çox Pakistan istehsalçısının kənd təsərrüfatı avadanlığı, avtomobil və avtomobil hissələri, məişət texnikası, təhlükəsizlik avadanlığı, inşaat materialları, kimyəvi maddələr, boyalar, zərgərlik əşyaları və daşlar, qablaşdırma materialları, mebel, idman malları, cərrahi alətlər, əczaçılıq və kosmetik məhsulları təqdim olunacaq.

# Yanvar ayında 9,7 milyard manatlığa yaxın ÜDM istehsal olunub

**2023-cü ilin yanvar ayında ölkədə 9 milyard 690,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz az ümumi daxili məhsul istehsal olunmuşdur.**

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 4,6 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 1,7 faiz artmışdır.

ÜDM istehsalının 52,8 faizi sənaye, 9,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 5,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,2 faizi tikinti, 2,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi informasiya və rabitə, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 15,5 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 8,1 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 956,6 manata bərabər olmuşdur.

# İqtisadi sektorda çalışanların sayı artıb

Cari il yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən, ötən ilin eyni dövrü ilə müqayisədə 24,8 min nəfər və ya 1,5 faiz artaraq 1 milyon 733,9 min nəfər olmuşdur.

Onlardan 903,3 min nəfəri iqtisadiyyatın dövlət, 830,6 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 19,3 faizi təhsil, 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi tikinti, 6,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 2,0 faizi maliyyə və sığorta fəaliyyəti, 14,0 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2022-ci ilin ilkin məlumatlarına əsasən, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 14,7 faiz artaraq 839,4 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# Keçən ay ölkə üzrə 2,7 milyon ton neft hasil edilib

**Cari ilin yanvar ayında Azərbaycanda 2,7 milyon ton neft (kondensatla birlikdə) hasil edilib.**

Energetika Nazirliyinin məlumatına görə, ölkə üzrə neft hasilatının 1,6 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 0,4 milyon tonu (kondensat) "Şahdəniz"in payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 0,7 milyon ton təşkil edib.

Hesabat dövründə 2,1 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 2 milyon tonu konsorsiumun, 134 min tonu isə SOCAR-ın payına düşür.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən cari il fevralın 1-dək 609,1 milyon tondan çox neft (kondensatla birlikdə) hasil edilib. "Azəri-Çıraq-Günəşli"dən 568,5 milyon ton neft, "Şahdəniz"dən isə 40,6 milyon ton kondensat çıxarılıb. Hesabat dövründə bunun 607 milyon tondan çoxu ixraca nəql edilib.

Bu ilin yanvar ayında ölkədə neftin emalı 559 milyon ton olub.

# Azərbaycanın 185 ölkədə ticarət tərəfdaşı var

Keçən il Azərbaycan dünyanın 185 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 121 ölkəyə məhsul ixrac, 173 ölkədən idxal olunmuşdur.




Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla, 2022-ci ildə ölkənin xarici ticarət dövriyyəsi 56 milyon 212,1 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 74,1 faizini ölkədən ixrac olunmuş məhsulların, 25,9 faizini isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 27 milyard 132,3 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2021-ci illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 57,7, real ifadədə 6,4, o cümlədən ixrac 8,7, idxal isə 1,7 faiz artmışdır. 2022-ci ildə qeyri neft-qaz məhsullarının ixracı əvvəlki illə müqayisədə faktiki qiymətlərlə 12,3, real ifadədə 4,2 faiz artaraq 3 milyard 47,7 milyon dollar olmuşdur.

Dövlət Statistika Komitəsi Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, ölkənin xarici ticarət dövriyyəsinin 34,4 faizi İtaliya, 11,1 faizi Türkiyə, 7,0 faizi Rusiya, 4,1 faizi Çin, 3,6 faizi Hindistan, 3,3 faizi İsrail, 2,7 faizi Yunanıstan, 2,4 faizi Almaniya, 2,1 faizi İspaniya, 2,0 faizi Birləşmiş Krallıq, 1,9 faizi Çexiya, 1,8 faizi Xorvatiya, 1,5 faizi Gürcüstan, 1,4 faizi Portuqaliya, 1,3 faizi İndoneziya, 1,2 faizi Ukrayna, hər biri 1,1 faiz olmaqla Qazaxıstan, Vyetnam və ABŞ, 14,9 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.

İxracın 46,6 faizini İtaliyaya, 9,3 faizini Türkiyəyə, hər biri 4,4 faiz olmaqla, İsrail və Hindistana, 3,6 faizini Yunanıstana, hər biri 2,6 faiz olmaqla İspaniya və Rusiyaya, 2,5 faizini Xorvatiyaya, 2,4 faizini Çexiyaya, 2,0 faizini Birləşmiş Krallığa, 1,9 faizini Portuqaliyaya, 1,7 faizini Gürcüstana, hər biri 1,6 faiz olmaqla İndoneziya və Almaniyaya, hər biri 1,3 faiz olmaqla Tunis və Vyetnama, 1,2 faizini Rumıniyaya, 1,1 faizini İsveçrəyə, 1,0 faizini İrlandiyaya, 6,9 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri-neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (30,5 faiz), Türkiyəyə (23,4 faiz), Gürcüstana (7,5 faiz), İsveçrəyə (6,5 faiz), Qazaxıstana (3,4 faiz), Niderlanda (2,3 faiz), ABŞ-a (2,2 faiz), Rumıniyaya (2,0 faiz), İtaliyaya (1,8 faiz), Bolqarıstana (1,8 faiz), Özbəkistana (1,5 faiz), Ukraynaya (1,5 faiz), Belarusa (1,2 faiz), Çinə (1,1 faiz), Hindistana (1,0 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir. Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin isə 18,8 faizi Rusiya, 15,8 faizi Türkiyə, 14,3 faizi Çin, 4,6 faizi Almaniya, 3,5 faizi Türkmənistan, 3,4 faizi Qazaxıstan, hər biri 3,3 faiz olmaqla ABŞ və İran, 2,3 faizi İtaliya, 2,0 faizi Yaponiya, hər biri 1,8 faiz olmaqla Koreya, Belarus, Ukrayna və Birləşmiş Krallıq, hər biri 1,5 faiz olmaqla Fransa və Hindistan, 1,3 faizi Braziliya, hər biri 0,9 faiz olmaqla Özbəkistan, Gürcüstan və Finlandiya, 14,5 faizi digər ölkələrilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

*"Azərbaycan"*

# 8,5 min hektarda meşəbərpa tədbirləri həyata keçirilmişdir

2022-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti tərəfindən 8524 hektar sahədə və ya əvvəlki illə müqayisədə 8,6 faiz az meşə fondu sahələrində meşəbərpa tədbirləri həyata keçirilmişdir.



Dövlət Statistika Komitəsi xəbər verir ki, görülmüş tədbirlər çərçivəsində 797 hektar sahədə meşə əkinləri, 565 hektar sahədə meşə səpinləri işləri aparılmış, 5 hektar sahədə meşə-bağlar, 7 hektar sahədə tez böyüyən ağac cinslərindən ibarət sənaye əhəmiyyətli plantasiyalar salınmış və 7150 hektar sahədə təbii bərpaya kömək göstərilmişdir. Ümumilikdə, xidmət göstərilmiş meşə əkinlərinin, səpinlərinin və meşə-bağlarının sahəsi 14830,3 hektar təşkil etmişdir.

Bundan başqa, toxmacar və cavan bitki şitilləri yetişdirmək məqsədilə 15,1 hektar sahəyə toxumlar səpilmiş, çilik kökləndirməsi məqsədilə 1,9 hektar sahəyə 112 min ədəd çilik basdırılmışdır. 2022-ci ildə meşə fondu sahələrindən 87,5 ton və ya əvvəlki illə müqayisədə 1,9 dəfə çox meyvə, meşə-ağac və kol cinslərinin toxumları tədarük edilmişdir ki, bunların da 2,0 tonu qoz, 0,6 tonu digər meyvə ağaclarının, 73,8 tonu palıd, 11,1 tonu isə digər meşə ağacları və kol cinsləri toxumlarının payına düşmüşdür.



# Adı yalançı, xəbəri doğru çərşənbə

Bahar sanki təbiətin ümid fəslidir. Yenidən oyanır, canlanır. Günəş də Yer üzünə bu fəsildə daha hərarətlə gülümsəyir. Canına hopan istilik torpağa can verir. İliyə işləyən soyuğun, şaxtanın, qarın sovuşduğunu duyan bənövşələr çüçərir, ağaclar tumurcuqlayır. Ancaq bütün bunlar birdən-birə baş vermir. Odur ki, Azərbaycan xalqı qədim zamanlardan yalnız təbiətin bahara qovuşduğu günü bayram etməyiblər.

Təmtəraqla qeyd olunan Novruz bayramına qədər keçirilən dörd çərşənbə bayramının da hər birinin öz mənası, özünəməxsus adət-ənənəsi var. Yaradılışın dörd mərhələsini - su, od, külək və torpağı təcəssüm etdirən çərşənbə bayramları təbiətə baharın gəlişindən xəbər verir.

## "Oğru üsgü", "doğru üsgü" və "ilin axır çərşənbəsi"...

Baharın gəlişini böyük ümidlə, səbirsizliklə gözləyə-gözləyə qışı mərhələlərə bölüb günləri, həftələri, ayları sayan, sıralayan ulularımız qırx gün davam edən Böyük çilləni yola saldıqdan sonra daha soyuq və sərt olan Kiçik çilləni qarşılayıblar. Kiçik çillənin ardınca da dəli-dolu küləkləri ilə əsib-coşan bir ay ömürlü Boz ay gəlir. Ancaq Böyük çillədən sonrakı həftələrin, yəni Novruza qədər olan bir ay iyirmi günün hər çərşənbəsi qədimdə müəyyən mərasimlərlə qeyd olunub.

İnanca görə, Kiçik çillənin ortasında insanlar bərəkət rəmzi sayılan Xıdır Nəbi bayramında xüsusi mərasimlər təşkil edir, qovut çəkir, qovurğa qovururlar. Baharın ilk müjdəçisi Xıdır Nəbinin gəlişi ilə təbiət tədricən oyanmağa başlayır. Xıdır Nəbi bayramından sonra yalançı çərşənbə gəlir. Görkəmli folklorşünas Məmmədhüseyn Təhmasib bu barədə yazıb: "Böyük bir səbirsizliklə yazın gəlməsini gözləyən qədim azərbaycanlı əkinçi böyük çilləni yola saldıqdan sonra yerdə qalan bir ay iyirmi günü, yəni yeddi həftənin hər çərşənbəsini bayram edirdi. Bunlardan birinci üçünə "oğru üsgü", ikinci üçünə "doğru üsgü", sonuncusuna isə "ilin axır çərşənbəsi" deyirdi. Bu çərşənbələrin hərəsinin özünə görə adət və ənənələri, rüsumat və dəbləri var idi.

Tədqiqatçı qeyd edib ki, bu adət və dəblər qışın mümkün qədər tez çıxması üçün vaxtilə icra edilən sehr və əfsunların indi qismən unudulmuş, qismən də başqa təsirlərin nəticəsi olaraq qarışmış qalıqlarından ibarətdir: "Bu sehr və əfsunlar vasitəsilə qışın tez çıxması üçün altı çərşənbə hazırlıq görmüş xalq, nəhayət, son çərşənbə günü bir yerə toplaşaraq onu elliklə yola salır, yeni ili, yəni yazın ilk gününü isə elliklə bayram edir".

Məmmədhüseyn Təhmasibin araşdırmaları belə nəticə ortaya çıxarıb ki, "oğru üsgü" adı altında qeyd etdiyi oğru (yalançı) çərşənbənin sayı üç olub.

Araşdırıcı Şakir Albalıyev bildirib ki, hazırda bu çərşənbələrdən "doğru üsgü" adı ilə qeyd edilən üç çərşənbə və bir də sonuncu ilin axır çərşənbəsi öz mərasimi aktuallığını qoruyub bayram şəklində el arasında sürdürülməkdədir: "Bir də bəzi bölgələrdə yerdə qalan "oğru üsgü" adlandırılan üç çərşənbədən biri ümumiləşdirilmiş halda "yalançı çərşənbə" adı altında zəif şəkildə keçirilir. Əgər "doğru üsgü" ifadəsini doğruçu - həqiqi çərşənbələr kimi qəbul edib, hazırda böyük təmtəraqla keçirdiyimiz su, od, yel və torpaq çərşənbələri olduğunu nəzərə alsaq, onda "oğru üsgü" istilahının da doğrunun əks qütbü olan yalan, yalançı kəlməsi ilə əvəz olunduğu qənaətinə gələrik".

## Adına uyğun qeyd olunan çərşənbə

Araşdırıcılar bu qənaətdədirlər ki, Novruzu bir bayram kimi özünəqədərki ilaxır çərşənbə bayramlarından təcrid edilmiş şəkildə araşdırmaq olmaz. Tədqiqatlardan məlumdur ki, Azərbaycan xalqı tərəfindən düzənlənən hər bir ayin və mərasimlər qışın, necə deyərlər, üzüyola, rəhimli olması, mümkün qədər soyuğunu, şaxtasını, qarını az etməsi və tez çıxması üçün icra edilib. Tədqiqatçılar vurğulayıblar ki, qədim zamanlardan insanlar ayinlər, mərasimlər keçirərək, yazın gəlişinə hazırlıq görüblər. Respublikamızın bir sıra regionlarında doğruçu çərşənbə hesab olunan dörd çərşənbədən qabaq yalançı çərşənbələr də qeyd edilib. Hesab ediblər ki, yalançı çərşənbə doğruçu çərşənbənin gəlişinə zəmin hazırlayır. Bu mənada Novruz bayramından qabaq qeyd edilən dörd çərşənbədən - su, od, külək və torpaq çərşənbələrindən əvvəlki çərşənbə yalançı çərşənbə sayılır.

Adət-ənənəyə görə, yalançı çərşənbədə ocaq qalansa da, alovu gur olmur. Belə ki, həmin gün günəş batar-batmaz adamlar öz həyətlərində səssiz-küysüz, azacıq saman, küləş yandırırlar. Alovu aldadıcı olan yalançı çərşənbə evlərdə qurulan süfrələrdə də hiss olunmur. Belə ki, doğruçu çərşənbələrdən - dörd ilaxır çərşənbələrdən fərqli olaraq, yalançı çərşənbədə evlərdə xüsusi yeməklər, şirniyyatlar bişirilmir, ayrıca bayram qazanı asılmır.

Ancaq adı yalançı olsa da, əslində gətirdiyi xəbər doğrudur. Belə ki, yalançı çərşənbə insanlara qışın ömrünün bitməsinə, yaza təslim olacağı vaxta sayılı günlər qaldığının müjdəsini verir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*



AZƏRBAYCAN
Dar gündə də, xoş gündə də bir yerdəyik
Mehriban Əliyevanın göstərişi ilə daha bir humanitar yardım təyyarəsi Türkiyəyə yola düşüb
Hərbi həkimlərimiz 8 cərrahi əməliyyatı uğurla icra edib, zərərçəkmiş 62 nəfərə ambulator yardım göstəriblər
Qardaş ölkəyə dəstək mənəvi borcumuzdur
İranın molla rejimi məhvə məhkumdur
Milli əmrkarlığın nümunəsi
Azərbaycanda da zəlzələ gözlənilirmi?
ABŞ Rusiya ilə START-ı dayandırmağa çağırır
Ermənistanda etirazlara vəkillər də qoşulub

# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# COVID-19-a yoluxma azalır

Dünya ölkələrinin COVID-19-la davamlı mübarizəsinə baxmayaraq, pandemiyanın qarşısını tamamilə almaq hələ də mümkün olmayıb. Sevindirici haldır ki, son günlərdə qeydə alınan statistik göstəricilərə əsasən, infeksiyaya yoluxanların sayında azalma müşahidə olunur.



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, yanvarın 9-dan fevralın 5-dək 10 milyondan çox insan koronavirusa yoluxub, onların 90 mindən çoxu vəfat edib. Təxminən bir ay əvvəlki göstəricilərlə müqayisədə, COVID-19 səbəbindən həyatını itirənlərin sayı 8 faiz, yoluxma halları isə 89 faiz azalıb. Yeni növ koronavirusa yoluxma ən çox Çində qeydə alınıb. Bu siyahıda daha sonra Yaponiya, ABŞ, Koreya Respublikası və Braziliya yer alır.

Çində yanvarın 9-dan fevralın 5-dək 50 minə yaxın xəstə həyatını itirib. Ümumiyyətlə, koronaviruslu xəstələrin ölüm faktı bu müddətdə daha çox Çin, ABŞ, Yaponiya, Böyük Britaniya və Braziliyada qeydə alınıb.

## Ölkəmizdə epidemioloji vəziyyət qənaətbəxşdir

Kliniki Tibbi Mərkəzin həkim-infeksionisti Aişə Kərimova deyir ki, son bir ayda dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da COVID-19-a yoluxanların sayında azalma müşahidə olunur: "Bayramlarla əlaqəli yoluxmanın artacağı ehtimal edilsə də, belə olmadı. Yanvarda günlük yoluxma sayı 70-dən yuxarı qalxmadı. Bunu influenzanın aktivliyi ilə də əlaqələndirmək mümkündür, çünki eyni anda iki virus infeksiyasına yoluxmaya az hallarda rast gəlinir".

A.Kərimova qeyd edir ki, COVID-19-un mutasiyaya uğramış ştamlarının əlamətləri influenza ilə, demək olar ki, eynidir: "Əlamətləri öskürək, boğaz ağrısı, ümumi halsızlıq, burun tıxanıqlığı və yüksək hərarətdir. Ən təhlükəli və insanları qorxudan tərəfi isə hərarətsalıcılar fonunda azalsa da, yenidən artan və təkrarlanan temperaturun günlərlə davam etməsidir. Ona görə xüsusilə həssas qrupa daxil olanlar: yaşlılar, azyaşlılar, hamilələr və yanaşı xəstəliklərdən əziyyət çəkənlər bu əlamətləri müşahidə etdiklərində, mütləq həkim müayinəsindən keçməli, nəzarət altında müalicə olmalıdırlar".

"Koronavirusla influenzanı yalnız laborator diaqnostika ilə fərqləndirmək mümkündür. Yuxarı tənəffüs yolları infeksiyalarının əlamətləri ilə müraciət edən və stasionar müalicəyə alınmış xəstələrdən götürülmüş testlərdə pozitiv nəticələrin aşkarlanması faktı çox azdır. Belə xəstələrin, adətən, qrip virusuna yoluxduqları müəyyənləşir"- deyə həkim-infeksionist bildirib.

## İnfeksiyaya yoluxmuş şəxslərin tibbi maskalardan istifadəsi mütləqdir

A.Kərimova qeyd edir ki, virusun geniş yayılma tendensiyasının davam etdiyini nəzərə alaraq, vəziyyətin kəskinləşməməsi üçün vətəndaşlara diqqətli və tədbirli olmalarını tövsiyə edirik: "Çox təəssüf ki, pandemiya hələ başa çatmadan insanlar tibbi maskadan uzaqlaşıblar. Xəstə şəxslər belə, tibbi maskadan istifadə etmirlər. COVID-19-a, habelə respirator virus infeksiyasına yoluxmuş şəxslərin cərrahi maskalardan istifadəsi mütləq tövsiyə olunur. Virusa yoluxmuş xəstələr özlərini yox, ətrafdakıları düşünməlidirlər".

Həkim-infeksionist deyir ki, diqqətsizlik və şəxsi gigiyena qaydalarına əməl etməmək virusa yoluxmaq ehtimalını artırır: "Dünyanın bir tərəfində hələ də pandemiya ocaqları varsa, üstəlik, ölkələrarası səyahətlər mövcuddursa, deməli, belə olan halda, virusun yayılmasının qarşısını yalnız birgə səylər nəticəsində ala bilərik. Xəstəliyə yoluxmuş şəxslər isə mütləq qaydada özlərini ətrafdakılardan təcrid etməlidirlər. İnsanlar sosial məsafəni qorumalı, gün ərzində gigiyena qaydalarına riayət etməlidirlər".

Qış mövsümündə immunitetin aşağı düşdüyünü vurğulayan infeksionist bildirir ki, məhz bu səbəbdən soyuq havalar virus infeksiyalarının yayılmasına münbit şərait yaradır. Ona görə də vitamin qəbuluna və gündəlik qida rasionuna, mövsümə uyğun meyvə-tərəvəzin qəbul edilməsinə xüsusi diqqət yetirilməlidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## "Bakı Sığorta" ASC-nin səhmdarlarının nəzərinə!

31 mart 2023-cü il saat 11:00-da Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 62 ünvanında yerləşən "Bakı Sığorta" ASC-nin baş ofisində cəmiyyətin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi, əlavə məlumat, o cümlədən yığıncağın gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Bakı Sığorta" ASC-yə, 969 telefon nömrəsi vasitəsi ilə müraciət edilə bilər.

**Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 62-də yerləşən "Gülüstan Residence" Kompleksinin 2 saylı binasının 3-cü mərtəbəsi.**

***Rəhbərlik***



Azercell

## abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 17.02.2023-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# Hava yağıntılı olacaq

Azərbaycanda fevralın 14-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə az yağıntılı olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 2°-dək isti, gündüz 4-6° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan yüksək - 772 millimetr civə sütunundan 766 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi dağlıq ərazilərdə havanın yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 6-10° isti, dağlarda gecə 10-15°, gündüz 0-5° şaxta olacağı bildirilir.

Gecə və səhər dağlıq rayonlarda yollar buz bağlayacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və Rüfət Səfərəliyev elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Xarici İşlər Nazirliyinin Xüsusi tapşırıqlar üzrə səfiri

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Fikrət Əzizov, Ramiz Əzizov, Sərvər Babayev və Raqif Abbasov Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN İSA OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi komitənin şöbə müdiri Əli Həziyevə atası

**VƏLİ HƏZİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının kollektivi iş yoldaşları

**MƏNSUR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov və universitetin kollektivi elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin kollektivi polkovnik İntiqam Fətullayevə atası

**DAVUD FƏTULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Firudin Qurbanova qardaşı, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN İSA OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, professor-müəllim heyəti, ictimai təşkilatları Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Aviasiya Akademiyasının prorektoru Şəmsəddin Axundov və M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasının əməkdaşları kafedranın baş müəllimi Azər Allahverdiyevə qardaşı professor

**NOVRUZ ALLAHVERDİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

M.Ə.Əfəndiyev adına Xətai Tibb Mərkəzinin kollektivi həkim Sitarə Rzazadəyə və ailəsinə əzizləri

**AZƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*



www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5068
Sifariş 403

Qiyməti 40 qəpik